RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 263 (9430) 2 DEKABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Prezident İlham Əliyev Dünya İqlim Fəaliyyəti Sammitində iştirak edib

**Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri**




Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısını qarşıladılar.

Sonra birgə foto çəkdirildi.



## Tərəfdaşlığımızın əhatə dairəsi genişlənir

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Fürsətdən istifadə edərək ölkənizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərinin 28-ci Konfransının rəsmi açılışı münasibətilə də Sizi təbrik edir, tədbirin işinə uğurlar diləyirəm.

Dini və mədəni köklərlə bir-birinə bağlı olan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir.

Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Ölkələrimizin dostluq ənənələrinin qorunub saxlanmasında, ikitərəfli münasibətlərimizin bugünkü səviyyəyə yüksəlməsində Sizin böyük əməyiniz vardır.

Biz dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət verir, birgə fəaliyyətimizi yeni məzmunla zənginləşdirmək əzmindəyik. Bu yaxınlarda ölkənizin "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş-Elektrik Stansiyasının rəsmi açılışı qardaşlıq əlaqələrimizin növbəti bariz təzahürüdür.

Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş ikitərəfli münasibətlərimiz və səmərəli, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da birgə səylərimizlə uğurla inkişaf etməyə və güclənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2023-cü il*

## Azərbaycan-Rumıniya münasibətləri xoş ənənələrə malikdir



**Rumıniyanın Prezidenti zati-aliləri cənab Klaus Verner İohannisə**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan-Rumıniya münasibətləri xoş ənənələrə malikdir. Bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimizin hazırkı inkişaf səviyyəsi və gündən-günə genişlənməsi məmnunluq doğurur.

Bu gün ölkələrimiz arasında əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur. İnanıram ki, son dövrdə həyata keçirilən ali və yüksək səviyyəli qarşılıqlı səfərlər, müntəzəm təmaslar strateji tərəfdaşlığımızın möhkəmlənməsinə, siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə birgə fəaliyyətimizin geniş potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Rumıniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2023-cü il*

## Dənizin dibi ilə...

**Çəkiləcək 1100 kilometrlik xətlə Azərbaycan "yaşıl enerji" ixrac edəcək**

Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

→ 7

## Zəfər xərcləri

**Azərbaycanın maliyyə imkanları işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə həyata keçirilməsinə imkan verir**

Azərbaycanın 2024-cü ildə sosial-iqtisadi inkişafını müəyyənləşdirən büdcə layihəsindən və büdcə zərfinə daxil edilmiş sənədlərdən də görünür ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası dövlətin prioritetlərindəndir. Bunun nəticəsidir ki, ötən müddətdə keçmiş məcburi köçkün olan 987 ailə (3926 nəfər) dədə-baba yurduna qovuşub.

→ 5

## Ermənistan beynəlxalq hüquq müstəvisində ifşa olunur

2023-cü il noyabrın 17-si tarixi də Ermənistanın beynəlxalq hüquq müstəvisində növbəti dəfə Azərbaycan qarşısında ağır məğlubiyyəti ilə yadda qaldı. Belə ki, BƏM sözügedən tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd etdi.

BƏM həm də Ermənistanın Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini rədd edib.

→ 6

## Sülh gündəliyi dəyişmir

**Barışın təşəbbüskarı olan Azərbaycanın mövqeyinə heç bir təhdid təsir göstərə bilməz**

Azərbaycan tərəfindən bütün beynəlxalq platformalar çərçivəsində öz ərazilərində qeyri-qanuni hərbi mövcudluğun qəbuledilməzliyi məsələsinin davamlı şəkildə qaldırılmasına baxmayaraq, Ermənistan beynəlxalq ictimaiyyətin bu məsələyə etinasızlığından cəsarətlənərək öz aqressiv fəaliyyətini davam etdirib. Mövcud çətinliklərə və çağırışlara, Ermənistan tərəfindən prosesin yersiz ləngimələrə məruz qalmasına, həmçinin bir sıra dövlətlərin öz geosiyasi oyunlarını regiona proyeksiya etmək cəhdlərinə baxmayaraq, Azərbaycanın sülh gündəliyinin təşəbbüskarı kimi prosesin irəlilədilməsində qərarlı olduğu diqqətə çatdırılıb.

→ 6

# Əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var

Almaniya Federativ Respublikasında səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Bundestaqın Sədri Barbel Bas ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Bundestaqın sədri ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişaf etdirilməsi ilə bağlı fikirlərini ifadə edib. O, Milli Məclis Sədrinin Almaniyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin daha da genişlənməsinə müsbət təsir göstərəcəyinə inamını ifadə edib.

Qeyd olunub ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilib. Bu dövr ərzində ikitərəfli münasibətlər siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf edib və əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var.

Bundestaqın spikeri hazırda ölkəsinin enerji təchizatında yaranmış problemlərlə bağlı fikirlərini bölüşüb. O, bu çərçivədə Almaniyanın bərpaolunan enerjiyə göstərdiyi diqqət, bu sahədə çalışan şirkətlər, Bundestaqın bu mövzu ilə məşğul olan parlamentariləri haqqında danışıb. Barbel Bas Azərbaycanın da bərpaolunan enerji sahəsində müvafiq qurumları ilə əlaqələrin yaradılması barədə fikirlərini bölüşüb.



Milli Məclisin Sədri deyib ki, Azərbaycan və Almaniya dost və tərəfdaş ölkələrdir. Azərbaycan bu ölkə ilə əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafında maraqlıdır. O, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin, görüşlərin müstəsna rolunu vurğulayaraq, bu mənada xüsusilə diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2023-cü ilin martında Almaniyaya işgüzar səfəri, Prezident Frank-Valter Ştaynmayer və kansler Olaf Şoltsla görüşləri əməkdaşlıq əlaqələrinin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edib.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanda əlverişli investisiya mühiti, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri, Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolu, bərpaolunan enerji üzrə icra olunan layihələr haqqında məlumat verib. Qeyd olunub ki, Almaniya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir.

Humanitar sahədə də əlaqələrin önəminə diqqət çəkilərək qeyd olunub ki, Azərbaycanla Almaniya arasında elm, təhsil, texnologiya, mədəniyyət sahəsində əməkdaşlığın gücləndirilməsi də əlaqələrin inkişafına müsbət təsir göstərəcək. Azərbaycanda mövcud olan tolerantlıq mühiti, müxtəlif etnik qrupların mehribanlıq, əmin-amanlıq şəraitində birgə yaşayışı bizim ən böyük xüsusiyyətlərimizdən biridir.

Qeyd olunub ki, ölkəmizdə alman mühacirlərin tarixi irsi dövlət səviyyəsində qorunur. 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi dövlət başçısının sərəncamı ilə həm Azərbaycanda, həm də Almaniyada müxtəlif tədbirlər çərçivəsində qeyd olunmuşdur.

Milli Məclisin Sədri Sahibə Qafarova qanunvericilik orqanları arasında əməkdaşlıq məsələlərinə də toxunaraq qeyd edib ki, ölkələrimiz arasındakı əməkdaşlığın inkişafında parlamentlərimizin də birgə işinin gücləndirilməsi vacibdir. Görüşdə hər iki tərəf dostluq qruplarının parlamentlərarası əlaqələrin inkişafında mühüm rolunu nəzərə alaraq, bu istiqamətdə təmasların və qarşılıqlı səfərlərin önəmini qeyd ediblər.

Spiker Sahibə Qafarova görüşdə regionda mövcud vəziyyət, Ermənistanın Azərbaycan torpaqlarını 30 illik işğalının doğurduğu nəticələr barədə geniş məlumat verib. O deyib ki, Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdikdən sonra irimiqyaslı yenidənqurma və bərpa işlərinə başlayıb. Milli Məclisin Sədri görülən işlərdə ən böyük maneənin Ermənistan tərəfindən işğal illərində və ondan sonrakı dövrdə Azərbaycan torpaqlarında basdırdığı 1 milyondan artıq minanın olduğunu vurğulayaraq, qeyd edib ki, son 3 ildə 340-dan çox azərbaycanlı mina partlayışının qurbanı olub. Azərbaycanın minalarla ən çox çirkləndirilmiş ölkələrdən biri olduğunu nəzərə alaraq, ölkəmizin minatəmizləmə səylərinə beynəlxalq dəstəyin əhəmiyyəti qeyd olunub.

Məhz Azərbaycanın regionda uzunmüddətli sülhün əldə olunması təşəbbüsü ilə çıxış etdiyini, Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim etdiyini diqqətə çatdıran Sahibə Qafarovanın sözlərinə görə, Ermənistanın siyasi və hərbi təxribatları, son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimə davamlı dəstəyi Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsini qaçılmaz edib. Bu tədbirlər mülki şəxslər arasında heç bir itki olmadan beynəlxalq hüquqa tam uyğun idi. Nəticədə separatçı rejim özünü ləğv etdi və Azərbaycan suverenliyini bərpa etdi. Spiker xüsusilə vurğulayıb ki, heç bir ölkə öz ərazisində separatçı bir qurumun mövcudluğunu qəbul edə bilməz.

O vurğulayıb ki, bu gün artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Azərbaycan sülh sazişinin imzalanması üzrə danışıqları davam etdirməyə hazırdır. Azərbaycan xalqının sülhü dəstəkləməsinin və sülh istəməsinin bariz göstəricisidir ki, xalqımız 30 il problemin sülh danışıqları ilə həll olunmasını gözləyib.

Sahibə Qafarova bir daha diqqətə çatdırıb ki, Azərbaycan hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında sülhə hazırdır.

Bundestaqın Sədri Almaniyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, regionda sülhün təmin olunmasının, sülh müqaviləsinin imzalanması üzrə danışıqların davam etdirilməsinin önəmini qeyd edib. O, həmçinin hazırda beynəlxalq gündəmdə prioritet təşkil edən məsələlərlə bağlı Azərbaycan parlament rəhbərinin fikirləri ilə maraqlanıb.

Görüşün sonunda spiker Sahibə Qafarova Almaniya Bundestaqının sədrinə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitabı təqdim edərək, Ermənistanın 30 illik işğal zamanı şəhər və rayonlarımızda törətdiyi dağıntılar, vəhşiliklər barədə məlumat verib.

Sonra Azərbaycan parlament nümayəndə heyətinin üzvləri Almaniya Bundestaqının binası ilə tanış olublar.

***Rəşad CƏFƏRLİ***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasına rəsmi səfərə gedib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Çex Respublikasına rəsmi səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Çex Respublikasının paytaxtı Praqanın Vatslav Havel Beynəlxalq Hava Limanında nümayəndə heyətini Çexiya Parlamentinin Deputatlar Palatasının Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Yan Kubik, Azərbaycanın Çexiyadakı səfiri Adış Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.



Səfər zamanı nümayəndə heyətimiz Çexiya parlamentində olacaq, keçirilən görüşlərdə ikitərəfli və parlamentlərarası əlaqələrimizin inkişaf perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

***"Azərbaycan"***

# Heydər Əliyevin 100 illiyinin Həştərxanda qeyd edilməsi Azərbaycan ilə mehriban qonşuluq əlaqələrinin genişləndirilməsinə böyük töhfə verir

Abşeron Rayon İcra Hakimiyyətinin başçısının rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan vilayətinə səfəri çərçivəsində Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri, o cümlədən Milli Məclisin deputatları Sabir Hacıyev və Əminə Ağazadə Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edən şagirdlərin mükafatlandırılması mərasiminə qatılıblar.

Əvvəlcə qonaqlar məktəbin fəaliyyəti barədə məlumatlandırılıb.

Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbinin direktoru Tatyana Tixomirova bildirib ki, yubiley tədbirləri çərçivəsində məktəbdə şeir, inşa və rəsm müsabiqələri keçirilib. O əlavə edib ki, bu təhsil müəssisəsi iki dövləti möhkəm tellərlə bir-birinə bağlayır.

Öz növbəsində, Həştərxan vilayəti hökumətinin sədr müavini İness Qorina Rusiya və Azərbaycanı bütün sahələrdə möhkəm və çoxillik münasibətlərin bağladığını vurğulayıb. Onun sözlərinə görə, belə tədbirlərin keçirilməsi xalqlarımız arasında mehriban qonşuluq və dostluq münasibətlərinə böyük töhfədir.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Ümummilli Liderin adını daşıyan məktəbin əhəmiyyətini vurğulayaraq, bu təhsil müəssisəsinin Heydər Əliyevə həsr olunmuş tədbirlərdə fəal iştirakını qeyd edib. O bildirib ki, Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunması Həştərxan ilə Azərbaycan arasında mehriban qonşuluq əlaqələrinin genişləndirilməsinə öz töhfəsini verir.

Sonra Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edən müəllim və şagirdlərin mükafatlandırılma mərasimi keçirilib.

# Belqrad-Bakı-Belqrad marşrutu üzrə birbaşa aviareyslərin işə salınması üçün aparılan işlər müzakirə olunub

Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti Serbiyada bir sıra hökumət rəsmiləri ilə görüşlər keçirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Serbiyanın daxili və xarici ticarət naziri Tomislav Momiroviç ilə görüşdə Azərbaycan ilə Serbiya prezidentlərinin dostluq münasibətləri, birgə səyləri ilə strateji tərəfdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında bütün sahələrdə ikitərəfli əlaqələrin inkişaf etməkdə olduğu vurğulanıb.

İki ölkənin iqtisadi və ticarət əlaqələrinin icmalı, bu sahədə əməkdaşlıq gündəliyinin genişləndirilməsi, ticarət dövriyyəsində davamlı artıma nail olunması imkanları, ixrac edilə bilən məhsullar və potensial ixrac bazarlarına dair fikir mübadiləsi aparılıb. İki ölkə arasında viza rejiminin aradan qaldırılmasının önəmi qeyd edilib.

Serbiyanın dağ-mədən və energetika naziri Dubravka Cedoviç, tikinti, nəqliyyat və infrastruktur naziri Qoran Vesiç ilə də görüşlər olub.

Görüşlərdə qaz təchizatı sahəsində imzalanmış sənədlərin icrası, Azərbaycandan Serbiyaya qaz tədarükü ilə bağlı fikir mübadiləsi aparılıb. Serbiyanın Gürcüstan-Rumıniya Qara dəniz sualtı enerji və rəqəmsal əlaqə layihəsinə cəlb edilməsi və elektrik enerjisi ticarəti imkanları nəzərdən keçirilib.

Eləcə də Azərbaycan və Serbiya arasında Belqrad-Bakı-Belqrad marşrutu üzrə birbaşa aviareyslərin yaxın vaxtlarda işə salınması üçün aparılan işlərdən bəhs olunub. İkitərəfli və tranzit yük axınlarının artırılması, infrastruktur sahəsində əməkdaşlığın davam etdirilməsi və s. məsələlər ətrafında müzakirələr aparılıb.

# "PAŞA Holding"in təşkil etdiyi İnmerge İnnovasiyalar Sammitinin ilk günündə nələr baş verdi?

Məlumat verildiyi kimi, "PAŞA Holding" İnmerge İnnovasiya Sammitini təşkil edir. Srağagün - 30 noyabr sammitin ilk günü baş tutub.

AZƏRTAC xəbər verir ki, tədbirin açılışı zamanı "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov tədbir iştirakçılarını salamlayıb, sammitin təşkilinin əsas məqsədi, eləcə də bu sammitin ölkəmiz və region üçün önəmi barədə danışıb.

"Ölkəmizdə və regionda innovasiya ekosisteminin dəstəklənməsi əsas prioritetlərimizdəndir. Düşünürəm ki, hazırkı sammit bu hədəfə çatmağa böyük töhfə verəcək", - deyə Cəlal Qasımov bildirib.

Bu sammit texnologiya sahəsində aparıcı şəxsləri və şirkətləri, eləcə də innovasiyayönümlü startapları Bakıda bir araya gətirmək, onlar üçün peşəkar müzakirələr, fikir və təcrübə mübadiləsi imkanı yaratmaq və beləcə, ölkə və regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərmək məqsədi daşıyır.

Tədbirin ilk günü çərçivəsində sammitin açılışı üçün rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, iqtisadiyyat nazirinin müavini Elnur Əliyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov və "Trendyol" şirkətlər qrupunun CEO-su Erdem İnan da səhnədə idilər. Onların çıxışının ardınca isə hamını həyəcanlandıran təqdimat baş tutub və Steve Vozniak gələn hər kəsi salamlayıb. O öz çıxışı zamanı məktəb vaxtlarındakı mühəndislik uğurlarına, Stiv Cobs ilə tanışlığına, həmçinin "Apple"ın ilk günlərindən hekayələrə yer verib.

Bütün bunlarla yanaşı, "PAŞA Holding" dünyanın müxtəlif ölkələrindən iştirakçıları maliyyə texnologiyaları və telekommunikasiya vertikallarında, eləcə də təlimlərdə bir yerə toplayıb.

Sammit çərçivəsində baş verən önəmli hadisələrdən biri də "Azərbaycan Respublikasında innovasiya və startap ekosisteminin inkişafı üçün əməkdaşlıq ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması olub. Memorandumu "PAŞA Holding"in İnnovasiyalar Şöbəsinin müdiri Fərrux Əliyev, İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov, Elm və Təhsil Nazirliyinin Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri vəzifəsini icra edən İnara Vəliyeva, SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov imzalayıblar.

Qeyd edək ki, dünən regionun ən böyük innovasiyalar sammitinin ikinci günü keçirilib.

# Almaniyalı deputatlar Azərbaycanın sülh təşəbbüsləri barədə məlumatlandırılıblar

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Almaniya Federativ Respublikasında səfərdə olan Azərbaycan parlament nümayəndə heyətinin üzvləri Almaniya-Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə qrupun üzvləri ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumara görə, görüşdə Milli Məclisin Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nurlan Həsənov, deputatlar Elnur Allahverdiyev, Soltan Məmmədov və Elşən Musayev iştirak ediblər.

Söhbət zamanı ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Azərbaycan və Almaniya arasında ikitərəfli münasibətlər bir çox sahələrdə uğurla inkişaf edib və əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var.

Milli Məclis Sədri Sahibə Qafarovanın bu səfərinin ikitərəfli əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inamın ifadə olunduğu görüşdə dostluq qrupları arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin və təmasların önəmi diqqətə çatdırılıb. Bu cür təmasların qarşılıqlı məlumatlandırma, ölkələrimiz arasında əməkdaşlığın aktual məsələlərinin müzakirəsi baxımından faydalı ola biləcəyi qeyd edilib.

Deputatlar hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanın sülh təşəbbüsləri barədə almaniyalı həmkarlarını ətraflı şəkildə məlumatlandırıblar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# *Qərbi Azərbaycan İcması:* "Avropa İttifaqının məsələlərə etnik və dini zəmində yanaşması qəbuledilməzdir"

Avropa İttifaqının nümayəndəsi ATƏT-in Nazirlər Şurasındakı çıxışında "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, o cümlədən qayıdış hüququ" məsələsini qabardıb.

AZƏRTAC xəbər verir ki, məsələ ilə bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd olunub: "Avropa İttifaqının Azərbaycanın daxili işlərinə qarışması, məsələlərə etnik və dini zəmində yanaşması, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların qayıdışı hüququna toxunmaması tamamilə qəbuledilməzdir. Bu kimi qərəzli açıqlamalar Avropa İttifaqının Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesində dürüst vasitəçi kimi çıxış edə bilməyəcəyini göstərir".

# *Ceyhun BAYRAMOV:* "Bəzi üçüncü tərəflərin bölgədə destruktiv fəaliyyəti sülhə xidmət etmir"

Dekabrın 1-də xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində təşkil olunan Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransının xüsusi sessiyasında çıxış edib.




Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, çıxış zamanı nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycanın xarici siyasət prioritetləri, Azərbaycan və Ermənistan arasında münasibətlərin perspektivləri, habelə regional vəziyyət barədə ölkəmizin mövqeyini diqqətə çatdırıb.

Xarici işlər naziri sentyabrın 19-da keçirilmiş antiterror tədbirlərini səciyyələndirən amillər barədə məlumat verib. Ermənistan tərəfindən sülh prosesinə qarşı törədilən maneələri qeyd edib.

Nazir ölkəmizin bölgədə apardığı bərpa və quruculuq işləri barədə məlumat verib. Bununla yanaşı, Ermənistanın ölkəmizə qarşı törətdiyi mina təhdidlərini xüsusi vurğulayıb.

Həmçinin Ermənistanın hərbi potensialını gücləndirməyə və bəzi üçüncü tərəflərin bölgədə destruktiv fəaliyyətinə diqqət çəkib. Bu kimi fəaliyyətin bölgədə sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb.

Antiterror tədbirlərindən sonra ölkəmizə qarşı qərəzli və təxribatçı ittihamların regiona səfər edən, eləcə də Ermənistanda aktiv fəaliyyət göstərən BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları ilə ziddiyyət təşkil etdiyi və ölkəmizə qarşı iddiaların əsassızlığının sübut olunduğu xatırlanıb.

Xarici işlər naziri, həmçinin son illər ərzində Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini diqqətə çatdırıb, çoxtərəfli diplomatiya sahəsində ölkəmizin fəal rolundan bəhs edib.

Son dövrlərdə bölgədə və dünyada baş verən hadisələr fonunda enerji təhlükəsizliyinin artan əhəmiyyətindən bəhs edən Ceyhun Bayramov enerji təhlükəsizliyinin təmin edilməsi, alternativ enerji sahəsində səylərə, eləcə də nəqliyyat dəhlizlərinin şaxələndirilməsi istiqamətində çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyinə diqqət yönəldib.

Daha sonra xarici işlər naziri Ceyhun Bayramov tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (AIR Center) təşkilatçılığı və Xarici İşlər Nazirliyinin dəstəyi ilə keçirilmiş konfransda Avropadan 30-dan çox düşüncə və tədqiqat mərkəzinin nümayəndələri, habelə nüfuzlu mütəxəssislər iştirak ediblər.

İlk dəfə ötən il Varşavada keçirilmiş Azərbaycan tədqiqatları üzrə Avropa Konfransı ölkəmizlə bağlı siyasi, iqtisadi və mədəni mövzular daxil olmaqla fərqli sahələr üzrə tədqiqatların təşviq edilməsi, eləcə də Azərbaycan barədə məlumatların dünya ictimaiyyətinə düzgün çatdırılması və akademik səviyyədə obyektiv təhlillərin aparılmasına töhfə məqsədini daşıyır.

# ATƏT-in Baş katibinə Ermənistanın götürdüyü öhdəliklərə zidd davranışları barədə məlumat verilib



Noyabrın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Skopye şəhərində ATƏT Nazirlər Şurasının 30-cu iclasında iştirakı çərçivəsində ATƏT-in Baş katibi Helqa Şmid ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov beynəlxalq hüququn əsas müddəalarına, o cümlədən ərazi bütövlüyü və suverenlik kimi təməl prinsiplərinə hörmətlə yanaşılmasında, bu prinsiplərin qorunub saxlanılmasında çoxtərəfli platformaların, o cümlədən ATƏT-in daha effektiv yanaşma sərgiləməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə postmünaqişə dövründə regionumuzda yaranmış reallıqlar, işğaldan azad olunmuş ərazilərimizin bərpası və məcburi köçkünlərin mərhələli şəkildə həmin ərazilərə qayıdışı, bərpa-qayıdış fəaliyyətlərinə ən böyük əngəl kimi mina təhdidi, eləcə də sülh prosesinin irəliyə aparılması istiqamətində ölkəmizin səyləri diqqətə çatdırılıb.

Ermənistanın götürdüyü öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən silahlı qüvvələrini çıxarmaması fonunda ölkəmiz tərəfindən cari ilin sentyabr ayında 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirləri barədə qarşı tərəf məlumatlandırılıb.

Beynəlxalq təşkilatların nümayəndələrinin də təsdiqlədiyi kimi, bu prosesdə mülki şəxslərə qarşı heç bir zorakılıq faktının olmadığı vurğulanıb, erməni sakinlərin ərazilərimizi tərk etməsinə gəlincə, bunun məsuliyyətinin Ermənistanın və onun tabeçiliyində olmuş qondarma rejimin üzərinə düşdüyü bildirilib.

Bu xüsusda, ərazi bütövlüyü və suverenliyin bərpası kimi beynəlxalq hüququn əsas prinsiplərinə münasibətdə ikili standartların, selektiv yanaşmanın tətbiqinin qəbuledilməzliyi qeyd olunub.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# *Monteneqronun XİN başçısı:* "Azərbaycanla münasibətlərin inkişafında mövcud potensialdan istifadə olunmasında maraqlıyıq"

Dekabrın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 30-cu iclası çərçivəsində Monteneqronun xarici işlər naziri Filip İvanoviç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan ilə Monteneqro arasında diplomatik münasibətlərin qurulmasından ötən 15 il ərzində iki ölkənin dostluq və əməkdaşlığa əsaslanan əlaqələr qurduğunu diqqətə çatdıran nazir Ceyhun Bayramov bu istiqamətdə qarşılıqlı səfər və təmasların, siyasi məsləhətləşmələrin intensivləşməsinin əhəmiyyətli rol oynadığını qeyd edib.

İki ölkə arasında müxtəlif sahələr, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat, investisiyalar, turizm, təhsil, humanitar və s. istiqamətlər üzrə əməkdaşlığın daha da inkişafı üçün potensialın mövcud olduğu, bu istiqamətdə münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi, habelə müqavilə-hüquq bazasının genişləndirilməsi üçün siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Nazir Filip İvanoviç Monteneqronun Azərbaycan ilə münasibətlərin daha da inkişafı istiqamətində mövcud potensialdan istifadə edilməsində maraqlı olduğunu, bu istiqamətdə qarşılıqlı dialoqun davam etdirilməsinin zəruriliyini bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

# Gələn ilin dövlət büdcəsinin layihəsinə dəyişikliklər edilib

Dekabrın 1-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili müzakirəyə 14 məsələnin - "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" və büdcə zərfinə daxil olan sənədlərin üçüncü oxunuşda, habelə bir sıra digər qanun layihələrinin təqdim edildiyini söyləyib.

Komitə sədri 2024-cü il üçün dövlət büdcəsi haqqında və büdcə zərfinə daxil olan qanun layihələrinin birinci və ikinci oxunuşda geniş müzakirə olunduğunu qeyd edib. O, keçən dövr ərzində dövlət başçısının bir sıra fərman və sərəncamlar imzaladığını, habelə deputatlar tərəfindən bəzi təkliflərin səsləndirildiyini nəzərə alaraq, dövlət büdcəsində müəyyən dəyişikliklərin edilməsi zərurəti yarandığını bildirib. Üçüncü oxunuşda təqdim olunan layihədə həmin dəyişikliklərin əks olunduğunu deyib.

Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edib. O bildirib ki, hazırda 2024-cü il və sonrakı 3 ildə makroiqtisadi sabitliyin qorunub saxlanılması və makrofiskal uyğunluğun təmin edilməsi məsələləri prioritet təşkil edir. Qeyd olunub ki, büdcə layihəsində xərc istiqamətləri üzrə Böyük qayıdış proqramının maliyyələşdirilməsi, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin möhkəmləndirilməsi, sərhədlərin bərpası və mühafizəsinin daha da gücləndirilməsi, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın fəallaşdırılması məsələləri əsas prioritetlər kimi müəyyən edilib. Bununla yanaşı, dövlətin əsas funksiyalarının həyata keçirilməsi, sosial müdafiə, elm, təhsil, səhiyyə sahələrində aparılan islahatların davam etdirilməsi ilə bağlı büdcə layihəsində vəsait nəzərdə tutulub.

Nazir həm ortamüddətli, həm uzunmüddətli büdcə dayanıqlılığının təmin edilməsi baxımından, 2024-cü ilin dövlət və icmal büdcələrinin göstəricilərinin dəyişdirilmədən, yəni dövlət büdcəsi gəlirlərinin 34 milyard 173 milyon manat, xərclərinin 36 milyard 763 milyon manat, kəsirinin 2 milyard 590 milyon manat, icmal büdcənin gəlirlərinin 38 milyard 998 milyon manat, xərclərinin 42 milyard 376 milyon manat, kəsirinin 3 milyard 379 milyon manat məbləğlərinin saxlanılmasının vacibliyini söyləyib. O, büdcə layihəsinə bəzi düzəlişlərin edilməsinə ehtiyac yarandığını və bunun mövcud xərclər çərçivəsində öz həllini tapdığını deyib.

Sonra Samir Şərifov dövlət büdcəsi layihəsi ilə bağlı aparılan dəyişikliklər barədə məlumat verib. O diqqətə çatdırıb ki, Ağdərə rayonunun təsis edilməsi ilə bağlı qanun layihəsinin 9-cu maddəsinə həmin rayonun adının əlavə edilməsi nəzərdə tutulub. Bununla yanaşı, ölkə Prezidentinin müvafiq fərmanı ilə təsdiq olunmuş Dövlət Su Ehtiyatları Agentliyinin Əsasnaməsinə uyğun olaraq Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin fəaliyyəti üçün dövlət sifarişi əsasında tələb olunan 7,3 milyon manatın agentliyin əsas fəaliyyəti üçün kənd təsərrüfatı xərc bölməsində nəzərdə tutulan 507,1 milyon manat vəsaitdən azaldılaraq elm xərcləri bölməsinə yönəldilməsi təklif olunur.

Nazir cari ildə qəbul edilmiş minimum əməkhaqqı üzrə qərarların icrası ilə əlaqədar Bakı şəhərinin və Laçın rayonunun yerli xərclərində bəzi texniki düzəlişlərin edilməsinə ehtiyac olduğunu deyib. O qeyd edib ki, Bakı şəhərinin yerli xərclərinin 2,3 milyon manat, Laçın rayonunun yerli xərclərinin isə 100 min manat artırılması planlaşdırılır.

Bildirilib ki, qeyd olunan dəyişikliklər nəzərə alınaraq, təqdim olunmuş qanun layihəsinin 7.1-ci maddəsində Ümumi dövlət xidmətləri bölməsi üzrə 4 milyard 814 milyon 934 min 382 manat rəqəmi 4 milyard 822 milyon 234 min 382 manat rəqəmi ilə, 7.8-ci maddəsində Mənzil və kommunal təsərrüfatı bölməsi üzrə 364 milyon 783 min 119 manat rəqəmi 367 milyon 83 min 119 manat rəqəmi ilə, 7.9-cu maddəsində Kənd təsərrüfatı bölməsi üzrə 1 milyard 109 milyon 893 min 587 manat rəqəmi 1 milyard 102 milyon 593 min 587 manat rəqəmi ilə, 7.10-cu maddədə Ətraf mühitin mühafizəsi bölməsi üzrə 376 milyon 822 min 901 manat rəqəmi 376 milyon 872 min 901 manat rəqəmi ilə, 7.12-ci maddədə Əsas bölmələrə aid edilməyən xərclər bölməsi üzrə 1 milyard 392 milyon 674 min 201 manat rəqəmi 1 milyard 390 milyon 324 min 201 manat rəqəmi ilə əvəz olunur.

Təqdimatda büdcə zərfində inzibati təsnifata uyğun olaraq xərclərin mövcud maddələr üzrə bölgüsündə nəzərdə tutulan bir sıra dəyişikliklər barədə də məlumat verilib.

Büdcə zərfinə daxil olan məsələlər də nəzərdən keçirildikdən sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında", Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Nağdsız hesablaşmalar haqqında" qanunda dəyişiklik edilməsi, "Sığorta fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi, "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitə sədri Tahir Mirkişili gündəlikdəki digər məsələlər barədə məlumat verib.

Komitə sədri "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (ikinci oxunuş) təqdim edərək sənəddə bir sıra düzəlişlərin edildiyini bildirib. O diqqətə çatdırıb ki, 5.1-ci maddəyə əsasən strateji əhəmiyyətli malların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilir. Təklif olunur ki, bu siyahı yalnız strateji əhəmiyyətli malların adlarını deyil, eyni zamanda həmin malların (onların bir hissəsinin) ölkə üzrə tələb olunan minimal həcmlərini də əks etdirsin. Bu məqsədlə "strateji əhəmiyyətli malların siyahısı" sözlərindən sonra "həmin malların, o cümlədən onların bir hissəsinin ölkə üzrə tələb olunan minimal həcmi də əks olunmaqla" sözləri əlavə edilir. Həmin düzəlişə uyğun olaraq 5.2-ci maddəyə də müvafiq düzəliş edilir.

6.1.2-ci maddəyə təklif olunan düzəlişə əsasən, strateji və fövqəladə ehtiyatların tədarükü və təchizatçıların seçilməsi sahəsində dövlətin vəzifələrinin səfərbərlik ehtiyatlarına da şamil edilməsi təmin olunur.

Habelə, təklif olunur ki, ehtiyatların saxlanıldığı yerlərə baxış keçirmək hüququ məsul qurumun istənilən işçilərinə deyil, müvafiq səlahiyyətə malik nümayəndələrinə həvalə edilsin. Bunun üçün 12.3-cü maddədə "işçiləri" sözü "müvafiq səlahiyyətli nümayəndələri" sözü ilə əvəz edilir.

Qeyd olunub ki, bununla yanaşı, qanun layihəsində dəqiqləşdirici və texniki xarakterli düzəlişlər də edilib.

Komitə üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, Aydın Hüseynov məsələ ilə bağlı fikir və qeydlərini, təkliflərini səsləndiriblər. Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra Tahir Mirkişili "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib.

O bildirib ki, layihədə adları qeyd olunan qanunlara təklif edilən dəyişikliklər "Dövlət ehtiyatları haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb. Belə ki, "Dövlət ehtiyatları haqqında" qanunla tənzimlənən məsələlər müvafiq qanunlardan çıxarılır, habelə bir sıra terminlərin dəqiqləşdirilməsi həyata keçirilir.

Komitə sədri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumatında layihədə bəzi dəyişikliklərin edildiyini söyləyib.

Qeyd olunub ki, sənəddə bir neçə anlayışın mətninə dəqiqləşdirici xarakterli düzəlişlər edilir, 1.1.4-cü maddədə "maddi və qeyri-maddi nemətlər" ifadəsi "maddi və ya qeyri-maddi əmlak" ifadəsi ilə əvəz edilir. Qiymətləndirmə fəaliyyətinin istiqamətləri konkretləşdirilərək bir neçə fəaliyyət istiqaməti bir ümumi bənddə təqdim olunur. Qanunun tətbiqi "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanuna uyğun olaraq qiymətli metal külçələrinin qiymətləndirilməsi zamanı istisna edilir. 12.1.7-ci maddədə "qərəzsiz, düzgün" sözləri "obyektiv" sözü ilə əvəz olunur. QHT-lərdə üzvlük könüllü xarakter daşıdığı üçün 18.3-cü maddədə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanuna istinad ləğv edilir. 20.1-ci maddəyə təklif edilən düzəlişlə ümumi yığıncağın üzvlərinə səsvermənin formasını (açıq və ya gizli) müstəqil müəyyən etmək imkanı verilir. Qanun layihəsində, həmçinin dəqiqləşdirici və bəzi texniki düzəlişlər də edilib.

Sonra Tahir Mirkişili üçüncü oxunuşda təqdim olunan "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında" qanun layihəsinə edilən dəyişikliklər barədə danışıb.

O diqqətə çatdırıb ki, qanunun 2024-cü il iyulun 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. 15.6-cı maddədə "müvafiq bazarın sərhədlərinin" ifadəsinin "müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin" ifadəsi ilə əvəzlənməsi təmin olunur. Bir sıra maddələrdə "rəqibin təsərrüfat fəaliyyəti" ifadəsi "rəqibin sahibkarlıq fəaliyyəti" ifadəsi ilə əvəz edilir. 43.1.2-ci maddədə "dərc olunan" sözlərindən sonra "(yayımlanan)" sözü əlavə edilir. Hal şahidlərinin iştirakı adlanan 54-cü maddə yeni redaksiyada verilir. Yenilənmiş mətndə bildirilir ki, bu məcəllədə nəzərdə tutulmuş hallarda yoxlama keçirərkən rəqabət orqanı tərəfindən baxış və götürmə fasiləsiz videoçəkiliş aparılmaqla həyata keçirilir. Baxış və götürmə haqqında protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeyd aparılır və videoçəkilişi əks etdirən məlumat daşıyıcısı həmin protokola əlavə olunur.

Qeyd edilib ki, məcəlləyə 60.2-ci maddə əlavə edilir. Əlavəyə əsasən, rəqabət orqanı tərəfindən aparılan araşdırma və ya yoxlama çərçivəsində barəsində araşdırma aparılan bazar subyektinin hərəkətlərində bu məcəllənin 77.1.1-ci maddəsində qeyd edilən qanun pozuntusu aşkar edildikdə, bazar subyektinə həmin pozuntunun mahiyyəti izah edilir və onun aradan qaldırılması üçün 10 gün vaxt müəyyən edilir. Pozuntunun könüllü aradan qaldırılması ilə bağlı əlavə vaxt tələb olunduğu halda bazar subyektinin müraciəti əsasında rəqabət orqanının qərarı ilə bu məcəllənin 60.1-ci maddəsi tətbiq edilir. 77.2.3-cü maddəsində "nisbi hökmran mövqe" ifadəsi "nisbətən yüksək bazar gücü" ifadəsi ilə əvəz edilir. Bununla yanaşı, qanun layihəsində dəqiqləşdirici, redaktə və üslub xarakterli düzəlişlər də nəzərdə tutulub.

Komitə üzvləri bu qanun layihələrini də Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**◆ Müəllifi İlham Əliyevdir**

# Zabuxda həyat qaynayır

## 31 ildən sonra doğma kəndlərinə dönən sakinlər Prezidentə minnətdardırlar





Günəş səhər şəfəqlərini dağların yamacına səpib asta-asta Zabuxu nura qərq edirdi. Sıra ilə düzülən evlər sanki yerinə, yurduna dönüb yenicə məskən salan durna qatarına bənzəyirdi. Üstü qırmızı kirəmitlə örtülmüş, yaraşıqlı ağ binalar qara günlərini arxada qoyan Zabuxun ağ günündən soraq verirdi…

Ətrafdan səhərin sakitliyini erkən durub işə tələsən, həyətlərində göy-göyərti əkən, təsərrüfat işləri ilə məşğul olan, səliqə-sahman yaradan zabuxluların şən, şux səsləri pozurdu…

Səhərin yeni açılmasına baxmayaraq, küçələrdə velisoped, skuter sürən dəcəl uşaqlar görünməyə başlayır. Kənddə salınmış istirahət parkından gənclərin gülüşü eşidilir…

Laçın Rayon İcra Hakimiyyəti başçısının Zabux inzibati ərazisi üzrə nümayəndəsi Elsevər Əliyev bildirir ki, Zabux demək olar, hər gün yeni sakinlərini qəbul edir. 121 ailə - 476 nəfər dogma yurduna qayıdıb. Kənddə sakinlərin qayğısız yaşamaları üçün hər cür şərait var. Qaz, işıq, su problemi yoxdur. Göründüyü kimi, geniş və yaraşıqlı yollara asfalt döşənib, yeni xəstəxana binası, məktəb tikilib. Sakinlərin istirahəti üçün çox gözəl park-istirahət mərkəzi yaradılıb. Səhərin təzəcə açılmasına baxmayaraq, küçələr, park kəndimizə yeni dönən sakinlərlə doludur. İllərdir dogma yerlərin həsrətini çəkən insanlar yaranan bu gözəlliyin dadını çıxarmaq üçün az qala gecə-gündüz istirahət parkından, küçələrdən çəkilmək istəmirlər.

Qarşımıza çıxan gülərüz bir kişi mehribanlıqla bizi salamlayıb üzünü Elsevər Əliyevə tutaraq deyir:

- Ay yerli hökumət, axşamdan kəndə jurnalistlərin gəldiyi xəbərini almışam. Əgər qonaqlar həmin o deyilən jurnalistlərdirsə, icazə ver evimə dəvət edim. Səhər- səhər bir stəkan çayımı içsinlər, ürəyim doludur, mən də ürəyimi boşaldım. Səhər çayını Cavan kişinin evində içməkdən başqa çarəmizin qalmadığını görüb razılaşırıq.

Zabuxa ilk qayıdanlardan biri də Cavan Məmmədovdur. Evində qələbəlik idi. Bakıdan qızları qonaq gəlmişdi. Necə deyərlər, kefi göylə gedirdi. Cavan Məmmədov deyir ki, sizinlə açıq danışacağam. Dövlətimiz mənə həyatımda görmədiyim, ağlıma gətirmədiyim gözəllikdə ev verib. Zabuxdan 7 nəfər ailə üzvümlə çıxmışdım. Novxanıda dəniz kənarında, pioner düşərgəsində məskunlaşmışdıq. Bənnalıq edir, özümüzü çətinliklə dolandırırdıq…

Laçın işğal olunmamışdan da bizim kənddə heç kimin belə gözəl evi yox idi. İllərlə işləsəydim, qazansaydım bu cür ev tikib yarada bilməzdim. Amma dövlətimiz məni də, oğlumu da ev sahibi etdi. Yaxın zamanlarda qızım Arzu ilə Nurayın ailəsinə də Laçında ev verəcəklər.

Avqustun 26-da ilk dəfə Zabuxa gələndə kəndimizi tanımadım. Dağlar həmin dağlar olsa da, evlər, küçələr, səliqə-sahman tamam başqa idi. Dedim, vallah, mən dəli olmuşam. Düşünürdüm ki, yəqin ağlımı qaçırmışam, yaxud məni qara basır. Yox, bu həqiqətmiş. Bura bizim kəndimiz, bu evlərsə biz zabuxlular üçün tikilmiş evlər idi. Mən bizə bu gözəlliyi verən, bu xoşbəxtliyi yaşadan Prezidentimizə minnətdaram. Bundan sonra ölsəm də, xoşbəxt öləcəyəm. Evi, şəraiti olan kişi kimi öləcəyəm.

*(Əvvəli qəzetin 1 dekabr tarixli nömrəsində)*





Zabuxda olarkən kənd orta məktəbinin direktoru Mübariz Rüstəmovun da qonağı olduq. Mübariz müəllim deyir ki, Zabux və zabuxlular həyatlarının ən gözəl günlərini yaşayırlar. Bütün evlərdən sevinc, xoşbəxtlik, gələcəyə olan inam, yaratmaq-qurmaq həvəsli insanların səsi gəlir. Zabuxlular görmədikləri şəraiti, gözəlliyi görürlər. İndi heç vaxt xəyal belə etmədiyimiz gözəlliyi gerçək həyatımızda yaşayırıq.

Məktəbimizi, onun həyətindəki stadionu, istirahət parkını görsəniz, dövlətimizin bizə yaşatdığı sizi də təəccübləndirər. Orta məktəbimizin yeni binasını universitet binasından fərqləndirmək olmur. Şəraiti də gözəldir…

Məktəb direktoru Zabuxda bu gözəlliyi yaradan Prezidentə minnətdarlığını bildirir. Deyir ki, Zabux indi bir gözəllik diyarı, xoşbəxt insanların qayğısız yaşadıqları məkan olub. Zabuxu ilk dəfə görən bir Avropa şəhərində olduğunu zənn edər. Biz bu gözəlliyi yalnız televizorda, xarici ölkələrdə görmüşdük. İndi isə belə bir gözəllikdə yaşamaq özümüzə qismət olub. Bu gözəlliyi bizə bəxş edən Prezidentimizə min alqış!

Mübariz müəllimin nəvəsi - qızı Ayselin oğlu Nadir də babası ilə birlikdə yaşayır. Dilli-dilavər, gələcəyi görən, istedadlı bir uşaqdır. Nadir deyir ki, babam həmişə mənə Zabuxun gözəlliyindən danışırdı. Bu diyarın gözəlliyi mənə reallıqdan çox möcüzəni xatırladır. Elə bilirəm ki, nağıllar aləmindəyəm.

Görünən o dağın zirvəsində sərhədçilərimiz durur, bizi qoruyurlar. Böyüyüb mən də sərhədçi olacağam. Vətənimin keşiyində duracağam. Xoşbəxtəm ki, Prezidentimiz Zabuxda olanda onunla görüşə bildim. Prezidentimizə söz verdim ki, böyüyəndə onun xilas etdiyi Zabuxu özüm qoruyacağam.

Zabuxun "yeni" sakini Namiq Abbasov köhnə günləri göz yaşı ilə xatırlayır: "Zabuxu tərk edəndə 13 yaşım var idi. Erməni təyyarələri başımıza od ələyirdi. Kəndin kənarında yanacaq anbarı var idi. Çalışırdılar ki, oranı vursunlar. Rəhmətlik atam, qardaşım və mən birtəhər kənddən çıxa bildik. Başımız müsibətlər çəkib. Bərdəyə sığınmışdıq. Oradan bizi Qax rayonuna apardılar. Sonra yenidən Bərdəyə qaytarmalı oldular… Bərdədən də Bakıya Xəzər rayonunun Buzovna qəsəbəsinə "Gilavar" düşərgəsinə getdik. Sanki qarğışa düşmüşdük. Çox şükür, indi canımız rahat olub. Zabuxda, öz evimizdəyik. Oğlum Ömər Laçın Rayon Yaşıllaşdırma və Abadlıq İdarəsində işləyir. Yaxşı əməkhaqqı alır. Özüm elə evimdəcə iş qurmuşam, fərdi sahibkarlıqla məşğulam. Həyatımızdan çox razıyıq.

Heç ağlımdan keçirə bilmirdim ki, bu qaçqınlıq həyatı bitəcək, bizim də belə evimiz olacaq. Hər cəhətdən ağlımıza gəlməyənləri yaşadıq. Sevinirəm ki, qızım Nurayı öz evimdən gəlin köçürəcəyəm. Oğlumun nişanlısını öz evimə gəlin gətirəcəyəm… Bizə bu xoşbəxtliyi yaşadana, bizi yenidən Zabuxa qaytarıb ev, iş sahibi edən Prezidentimizə minnətdaram!"

Digər həmsöhbətimiz Rüfət İmanov deyir ki, Zabuxdan çıxanda 7 yaşım var idi: "Yevlaxa pənah aparmışdıq. Oradan da Bakıya, Maştağaya köçdük. Çox şükür ki, əziyyət çəksək də, azalmadıq, sayımız artdı. Oğlum İlkin 13, Nuray 11 yaşındadır. Gözəl evimiz var. Övladlarımın ümüdverici gələcəyi olduğunu hiss edirəm. İlkin istedadlı uşaqdır".

İlkin söhbətə qoşulur:

- Məktəbimizdə hər cür şərait var. Arzum kompüter mühəndisi olmaqdır. Bacımla birlikdə hələlik Laçın şəhər 2 saylı məktəbdə oxuyuruq. Dərsə məktəbin avtobusu ilə gedib-gəlirik. Sizə deyim ki, Laçını bizə məktəbdə müəllimlərimiz, evdə valideynlərimiz sevdiriblər. Biz belə rahatçılıq görməmişdik. Ürəyimiz heç sevinməmişdi...

Rüfət deyir ki, mənə, övladlarıma bu şəraiti bəxş edən, bizi sağ ikən cənnətdə yaşadan Prezidentimizə minnətdaram!

Söhbətimizi qədim yurdun yeni sakinlərindən Əlif Aslanovla onun evində davam etdiririk. Əlif müəllim Zabuxun işğalına qədər ömürgün yoldaşı Günay xanımla 15 il kənddə müəllimlik ediblər. Ömürlərinin 31 ilini isə Bakıda Yeni Günəşlidə yaşamağa məcbur olublar. Bu illərdə Əlif müəllim Bakıda öz biznesini qurub, Günay isə 265 nömrəli məktəbdə müəllim işləyib.

Əlif müəllim deyir ki, çətinliklə də olsa, Bakıda şərait qura bilmişdim. Günüm nə qədər xoş keçsə də, içimdə dogma yurdun həsrəti vardı.

Zabux ən qədim yaşayış məskənlərindən biridir. Strateji əhəmiyyəti var. Həm də bir dağlar gözəlidir.

Gözəl mənzərəsini, təmiz havasını bir kənara qoyaq, indi gördüyünüz Zabuxu insan zəkasının möcüzəsi adlandırmaq mümkündür. Zabuxun gözəlliyi indi düşmənə dərd olub.

Biz bu yurdun sahibləriyik. Bütün dünya görür ki, qururuq, yaradırıq, əkirik, becəririk. Kənddə, rayonda yeni iş yerləri yaradılır.

Düşmən isə bu 30 ildə uçurub-dağıtmaqla məşğul olub. Zabux Azərbaycan dövlətinin gücünü, qüdrətini dünyaya göstərən bir ünvandır. Ermənilərin 30 ildə dağıtdığını biz 9 aya, müqayisəolunmaz bir gözəllikdə bərpa etdik.

Mən, Qarabağın, Şərqi Zəngəzurun xilaskarı, Zabuxu cənnətə döndərib, bizi yenidən ev sahibi edən, dogma yurdumuza qaytaran Prezidentimizə "var ol, Prezidentim, min yaşa", - deyirəm.

Digər həmsöhbətimiz isə ömrünün 31 ilini Bakıda Müşviq qəsəbəsində keçirən Muxtar Əhmədov oldu.

Muxtar kişi noyabrın 16-da Zabuxa qayıdıb. Deyir ki, Zabuxsuz keçirdiyim günləri ömrümdən hesab etmirəm. Şükür Allaha, bu günü gördük. 6 nəfər ailə üzvümüzə iki 3 otaqlı ev veriblər. Qızım Xəyalə qonşuluğumda yaşayır. Hər sabah Allaha əl açıb bizə bu xoşbəxtliyi yaşadan Prezidentimizə dua edirəm.

Zabuxda həyatı qaynayan, insanların ürəyini sevinən gördük. Hər tərəfdə qızğın abadlıq, quruculuq işləri gediridi. Zabuxda geridə qalan hər saat yeni yaranmış bir gözəllik deməkdir. Sanki yaranan gözəlliklər düşmənə "yamanlıq sənə qaldı", - deyir. Zabux xoşbəxt tarixini yaşayır, yaşayacaq, əbədi olaraq var olacaq!

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Zabux-Bakı*



















# Türkiyənin Kahramanmaraş bölgəsinə növbəti humanitar yardım göndərilib

Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu (ADDF) Türkiyənin Kahramanmaraş bölgəsinə növbəti humanitar yardım göndərib.





AZƏRTAC xəbər verir ki, humanitar yardımın yolasalma mərasimində çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev bildirib ki, bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələnin ilk saatlarından Azərbaycan dövləti və xalqı qardaş Türkiyənin yanında olub. Prezident İlham Əliyevin göstərişi ilə dərhal zəlzələ bölgəsinə Azərbaycandan xilasedicilər və humanitar yardım karvanları göndərilib. İstər Azərbaycanda, istərsə də xaricdə yaşayan azərbaycanlılar türkiyəli qardaşlarına yardım etmək üçün səfərbər olub. Havaların soyuması ilə əlaqədar zəlzələdən içərilərində azərbaycanlıların da olduğu zərərçəkmiş şəxslərə dəstək məqsədilə bu gün göndərilən yardım da həmin prosesin tərkib hissəsidir.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı növbəti humanitar yardıma görə Azərbaycan dövlətinə təşəkkür edib. Bildirib ki, istər Türkiyədəki meşə yanğınları zamanı, istər İkinci Qarabağ müharibəsi dövründə, istərsə də bu ilin fevralında baş verən zəlzələdən sonra bütün dünya "Bir millət, iki dövlət" fəlsəfəsinə söykənən Azərbaycan-Türkiyə qardaşlığına əyani şahid oldu.

Daha sonra içərisində yorğan, adyal, kondisioner, isidici və yemək bişirmək üçün sobalardan ibarət olan 2 tır Kahramanmaraş rayon Afet və Acil Durum (AFAD) Müdürlüyünə göndərilib. Humanitar yardımın tərkibi Türkiyənin Azərbaycandakı səfirliyi və AFAD-la birlikdə müzakirələr nəticəsində bölgədə hazırkı ehtiyaclar nəzərə alınaraq müəyyənləşdirilib.

Xatırladaq ki, Azərbaycan hökumətinin dəstəyi ilə ADDF cari ilin aprel ayında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası ilə birlikdə Kahramanmaraşda zəlzələdən zərərçəkmiş 2600-dən çox ailəyə ərzaq yardımı, avqust ayında isə yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq Hatay və ətraf bölgələrdə 1-ci sinfə gedəcək şagirdlərə dəstək üçün 3000 məktəbli dəstindən ibarət humanitar yardım göndərib.

ADDF tərəfindən göndərilən yardımlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması, zəlzələdən zərərçəkənlərin həyatlarının yüngülləşdirilməsi və ehtiyaclarının ödənilməsi məqsədilə dövlətimizin həyata keçirdiyi uzunmüddətli kampaniyanın tərkib hissəsidir.

# Şuşada "Türk dünyasının mədəni turizm perspektivləri" beynəlxalq konfransı və türk xalqlarının ortaq mətbəxinin təqdimatı olub

Dekabrın 1-də Şuşada "Türk dünyasının mədəni turizm perspektivləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyi ilə Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən təşkil olunan tədbirin məqsədi türkdilli dövlətlərin ortaq turizm məhsulları və marşrutlarının yaradılması istiqamətində fikir mübadiləsi aparılması, bu sahədə əməkdaşlıq perspektivlərinin müzakirə olunmasıdır. Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və Macarıstanın rəsmi qurumlarının təmsilçiləri, mədəni irs üzrə ekspertləri iştirak ediblər.

Konfransda çıxış edən Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova bu tədbirin Şuşa şəhərində keçirilməsinin təsadüfi olmadığını, Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı olması ilə yanaşı, Azərbaycan üçün qələbə və sülh rəmzinə çevrildiyini bildirib. A.Hüseynova tədbirin əhəmiyyətini vurğulayaraq, ortaq mədəni irsə sahib olan türkdilli dövlətlərin turizm sahəsində əməkdaşlığının gücləndirilməsinə ehtiyac olduğunu qeyd edib. O, konfransda səslənən fikirlərin türk xalqları arasında əməkdaşlıq perspektivlərinin genişləndirilməsinə dəstək olacağına əminliyini ifadə edib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov Şuşanın ölkəmizin ən gözəl və tarixi-memarlıq abidələri ilə zəngin guşələrindən biri olduğunu söyləyib. O, şəhərin özündə və ətrafında mədəni turizmin inkişafi üçün kifayət qədər imkanların mövcudluğunu bildirib. Konfransın işinə uğurlar arzulayan T.Novruzov gələcəkdə yeni turizm marşrutlarının imkanlarını vurğulayıb.

Sonra konfransda TDT üzv ölkələrin nümayəndələri "Türkdilli ölkələrin köçəri həyat tərzinin turizm məhsuluna çevrilməsi" mövzusunda təqdimatlarla çıxış ediblər.

Unudulmaqda olan köçəri həyat tərzinin türk xalqları arasında, eləcə də Azərbaycanda hələ də qorunub saxlandığı qeyd edilib. Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə agentliyin mütəxəssisləri tərəfindən hazırlanmış nominasiya sənədi ilə "Xınalıq kəndi və Köç yolu Mədəni Landşaftı"nın bu ilin sentyabrda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edildiyi vurğulanıb. Konfrans çərçivəsində, həmçinin iştirakçı ölkələrdə köçəri mədəniyyətini əks etdirən fotolardan ibarət sərgi də təşkil olunub.



Tədbir çərçivəsində Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə türk xalqlarının ortaq mətbəx nümunələrinin təqdimatı da keçirilib. Üzeyir bağında açıq havada təşkil olunan tədbirin açılışında Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov iştirak ediblər.

Qonaqlar Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın mətbəx nümunələrini təqdim edən stendlərlə tanış olublar. Təqdimatın iştirakçıları hər bir türkdilli dövlətin milli xörəklərindən, şirniyyatlarından dadmaq imkanı əldə ediblər. Ziyarətçilərə qutab növləri, plovlar, beşbarmak, kumis, Qarabağ kətəsi, fərqli növ ət yeməkləri, türk qəhvəsi təqdim edilib. Həmçinin xüsusi dizayn edilmiş köşklərdə türkdilli ölkələrdən dəvət edilmiş tanınmış aşpazlar ustad dərsləri keçirərək canlı yemək bişirilməsi prosesini nümayiş etdiriblər.

# Yuta ştatının dini icması Azərbaycanla mənəvi əlaqələrin dərinləşməsində maraqlıdır

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan ABŞ-nin Stirlinq Fondunun prezidenti və idarə heyətinin sədri Mayls Hansenlə görüşüb.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam A.Paşazadə Stirlinq Fondunun həmtəşkilatçılığı ilə Bakıda Tolerantlıq Günü ilə bağlı keçirilən beynəlxalq konfransı, Azərbaycandakı dini konfessiya rəhbərlərinin ABŞ-nin Yuta ştatına builki səfərini xatırlayıb. Diqqətə çatdırılıb ki, ölkəmizin multikultural dəyərlərinin təşviqi baxımından həyata keçirilən səfər zamanı nümayəndə heyəti Yutanın ən böyük sərvətinin məhz onun qonaqpərvər, insanpərvər, mənəvi baxımdan zəngin insanlarının olduğunu məmnunluqla müşahidə edib.

QMİ sədri Stirlinq Fondunun Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatları həyata keçirilməsində yaxından iştirak etməsini yüksək dəyərləndirib, bu fəaliyyəti - müqəddəs dəyər olan insan həyatının qorunması yönündə səylərin yüksək olduğunu diqqətə çatdırıb. A.Paşazadə bildirib ki, dövlətimiz azad olunmuş torpaqlarımızı minalardan təmizləyərək yenidənqurma işləri həyata keçirir, işğal dövründə dağıdılmış, vandalizmə məruz qalmış dini-mənəvi abidələrimizi, məscidlərlə yanaşı, kilsələri və digər məbədləri bərpa edir.

Stirlinq Fondunun prezidenti Edvard Rounun salamlarını çatdıran M.Hansen səmimi görüşə görə şeyxülislama minnətdarlığını bildirib. Azərbaycana hər səfərdən mənəvi zövq aldığını deyən amerikalı qonaq ölkəmizin multikultural həyat tərzinin olduqca böyük əhəmiyyət kəsb etdiyini, Yuta ştatının dini icmasının Azərbaycanla mənəvi əlaqələrin dərinləşməsində maraqlı olduğunu vurğulayıb. O, Şeyxülislam A.Paşazadəni Yuta ştatına bir daha səfərə dəvət edib.

Şeyxülislam A.Paşazadə ünsiyyətdə olduğu dünya dini liderlərinin Stirlinq Fondu, Yuta mormon kilsəsi haqqında müsbət fikirlərini eşitməkdən məmnunluq duyduğunu bildirib, səmimi salamlarını və ən xoş arzularını fondun prezidenti E.Rouya çatdırmağı xahiş edib. Bu əsnada, QMİ sədri il ərzində iştirak etdiyi qlobal dini forumlar barədə qonağa məlumat verib.

Sonda xatirə fotosu çəkilib.

Görüşdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov da iştirak edib.

# Zəfər xərcləri

## Azərbaycanın maliyyə imkanları işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə həyata keçirilməsinə imkan verir



Erməni vandalizminə məruz qalmış torpaqlarımızda Vətən müharibəsindəki şanlı zəfərimizdən sonra bərpa və yenidənqurma işləri sürətlə davam edir. Hər ötən gün Qarabağ və Şərqi Zəngəzurda sıralarına yenisinin əlavə olunduğu layihələrin icrasını Azərbaycan dövləti yalnız özünün maliyyə imkanları hesabına həyata keçirir.

İqtisadiyyatımızın davamlı və dayanıqlı olmasının nəticəsidir ki, 2024-cü ilin dövlət büdcəsində cari il üçün təsdiq olunmuş gəlir və xərclər müvafiq olaraq 9,8 faiz və 9,6 faiz artırılıb. Bu artım nəzərdə tutulan hədəflərə uğurla nail olunmasına, o cümlədən işğaldan azad edilmiş bölgələrdə bərpa-quruculuq işlərinin sürətləndirilməsi üçün lazımi maliyyə vəsaitinin ayrılmasına imkan verir.

2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsində büdcə gəlirləri 34 milyard 173 milyon manat, xərcləri isə 36 milyard 763 milyon manat nəzərdə tutulub. Büdcə layihəsində işğaldan azad olunmuş ərazilərin bərpası və əhalinin məskunlaşmasına şəraitin yaradılması üçün 4 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Xərclərin strukturundan da aydın olur ki, həmişə olduğu kimi, növbəti ilin dövlət büdcəsi də müasir dövrün çağırışlarına cavab verən sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsinə uyğun hesablanıb.

### 2024-2026-cı illərdə Böyük qayıdışa 10,6 milyard manat vəsait ayrılacaq

Azərbaycanın 2024-cü ildə sosial-iqtisadi inkişafını müəyyənləşdirən büdcə layihəsindən və büdcə zərfinə daxil edilmiş sənədlərdən də görünür ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası dövlətin prioritetlərindəndir. Bunun nəticəsidir ki, ötən müddətdə keçmiş məcburi köçkün olan 987 ailə (3926 nəfər) dədə-baba yurduna qovuşub.

Vətən müharibəsi başa çatdıqdan sonra işğaldan azad edilmiş ərazilərin bərpasına Azərbaycan büdcəsindən 7 milyard dollar həcmində vəsait sərf edilib. Cari ilin dövlət büdcəsində Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 5,3 milyard manat ayrılıb. 2024-2026-cı illərdə isə sözügedən proqramın icrasına ümumilikdə 10,6 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Göründüyü kimi, gələn ilin büdcəsi Prezident İlham Əliyevin İkinci Qarabağ savaşından sonra müəyyən etdiyi yeni inkişaf strategiyasına cavab verən islahatların həyata keçirilməsinə şərait yaradacaq. Büdcə gəlirlərinin artması ən aktual istiqamətlərə daha çox vəsaitin xərclənməsinə səbəb olacaq.

### Hədəflər bəllidir

Növbəti ilin dövlət büdcəsindən sözügedən istiqamət üzrə ayrılan vəsaitin Qarabağ və Şərqi Zəngəzurda təhlükəsiz yaşayışı və dövlət idarəetməsinin təşkili, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və dayanıqlı infrastrukturla təminatı, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, məşğulluq imkanlarını artırmaq, sahibkarlıq mühitinin əlverişli olmasına və biznes fəaliyyətinin inkişafı, turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadə, ətraf mühitin etibarlı mühafizəsini və ekoloji təhlükəsizliyi, təbii resurslardan səmərəli və effektiv istifadə, "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək kimi vacib hədəflərə sərf edilməsi planlaşdırılır. Bu məqsədlərə nail olmaq üçün 2024-cü ilin dövlət büdcəsində məlum strateji istiqamətlər üzrə maliyyə vəsaiti ayrılıb.

Xatırladaq ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib. Növbəti ilin dövlət büdcəsi onu deməyə əsas verir ki, Azərbaycan heç bir maliyyə dəstəyi almadan Qarabağ və Şərqi Zəngəzurun bərpasını həyata keçirərək soydaşlarımızın doğma torpaqlarına qovuşmasını tamamilə iqtisadi gücü hesabına həyata keçirmək iqtidarındadır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# *Stirlinq Fondunun prezidenti:* "Azərbaycandakı dinlərarası dialoq və əməkdaşlıq çox qiymətli dəyərdir"

Dekabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ABŞ-nin Stirlinq Fondunun prezidenti və idarə heyətinin direktoru Mayls Hansen ilə görüşüb.



Bu barədə AZƏRTAC-a komitənin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, görüşdə komitənin sədri Azərbaycandakı dinlərarası harmoniya, multikultural və tolerant dəyərlərə verilən önəm, dini etiqad azadlığının yüksək səviyyədə təmin edilməsi barədə danışıb.

O qeyd edib ki, dünyəvi dövlət olan Azərbaycanın dini konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. 37-si qeyri-islam təmayüllü olmaqla dövlət qeydiyyatına alınan 995 dini icmanın fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməklə yanaşı, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır.

Stirlinq Fondunun prezidenti Mayls Hansen ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın çox qiymətli dəyər olduğunu vurğulayıb. Fondun Azərbaycanda həyata keçirdiyi işlərə toxunan qonaq, eyni zamanda Briqam Yanq Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlığın inkişaf perspektivlərinə diqqət çəkib.

Görüşdə, həmçinin sözügedən universitetlər arasında anlaşma memorandumunun imzalanmasından danışılıb, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Sülh gündəliyi dəyişmir

### Barışın təşəbbüskarı olan Azərbaycanın mövqeyinə heç bir təhdid təsir göstərə bilməz

Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin olunması üçün əlverişli imkan yaranıb. Regionda 30 ildən çox davam edən münaqişənin bitməsi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, ən nəhayət, Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı bəyanatı göstərir ki, tərəflər sülhə yaxındırlar.



Noyabrın 30-da iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılan komissiyaların beşinci görüşündə də birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətni ilkin olaraq razılaşdırılıb. Tərəflər komissiyaların birgə fəaliyyət haqqında əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşib, həmçinin görüşlərin keçirilməsinin intensivləşdirilməsi, növbəti görüşün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

Lakin bütün dövrlərdə bölgədə marağı olan bəzi dövlətlər, xüsusən də ABŞ və Fransanın yeni "oyunları" göstərir ki, bu ölkələr regionda sabitliyin bərqərar olunmasında nəinki maraqlı deyillər, hətta konkret olaraq Cənubi Qafqazın hər zaman münaqişə ocağı kimi qalması üçün hiyləgər, ikiüzlü siyasət yürüdürlər. Bir tərəfdən Ermənistanın silahlandırılması, digər tərəfdən sülh müqaviləsinin imzalanmamasında Azərbaycanın günahlandırılması bunu təsdiqləyən reallıqdır.

Elə xarici işlər naziri Ceyhun Bayramov da ATƏT-in Nazirlər Şurasının 30-cu iclasında çıxış edərkən də bir daha bu məsələlərə toxunub. Nazir çıxışında ikili standartlar problemi və selektiv yanaşmanın beynəlxalq münasibətlər sistemində mövcud təhdid və çağırışlara qarşı effektiv cavab tədbirləri görülməsinin qarşısında duran ən böyük maneələrdən biri olduğunu vurğulayıb. Bu istiqamətdə beynəlxalq hüquq normalarına, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmətin müstəsna əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət barədə ətraflı məlumat verən Ceyhun Bayramov, xüsusilə bu ilin 19-20 sentyabr tarixlərində Qarabağ bölgəsində görülən antiterror tədbirləri nəticəsində ərazilərimizdə Ermənistan tərəfindən öhdəliklərinə və şifahi bəyanatlarına zidd şəkildə saxlanan qeyri-qanuni rejimin buraxıldığı və tərk-silah edildiyini diqqətə çatdırıb.

Azərbaycan tərəfindən bütün beynəlxalq platformalar çərçivəsində öz ərazilərində qeyri-qanuni hərbi mövcudluğun qəbuledilməzliyi məsələsinin davamlı şəkildə qaldırılmasına baxmayaraq, Ermənistan beynəlxalq ictimaiyyətin bu məsələyə etinasızlığından cəsarətlənərək öz aqressiv fəaliyyətini davam etdirib. Mövcud çətinliklərə və çağırışlara, Ermənistan tərəfindən prosesin yersiz ləngimələrə məruz qalmasına, həmçinin bir sıra dövlətlərin öz geosiyasi oyunlarını regiona proyeksiya etmək cəhdlərinə baxmayaraq, Azərbaycanın sülh gündəliyinin təşəbbüskarı kimi prosesin irəlilədilməsində qərarlı olduğu diqqətə çatdırılıb. Bu istiqamətdə, Azərbaycanın Ermənistana dövlət sərhədində, yaxud qərəzsiz və ya neytral üçüncü bir ölkədə görüşməyi təklif etdiyi də qeyd olunub.

Amma Ermənistan ilə münasibətlərin normallaşdırılması üzrə Azərbaycanın davamlı sülh gündəliyini təşviq etməsinə baxmayaraq, Ermənistan tərəfindən ölkəmizə qarşı ardıcıl şəkildə aparılan qarayaxma kampaniyası sülhə xidmət etmir.

Noyabrın 18-də Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə 2024-cü ilin dövlət büdcəsinin müzakirəsi zamanı çıxışında bir daha səsləndirdi ki, yaxın aylarda Azərbaycanla sülh müqaviləsi bağlamaq üçün siyasi iradə var. Hökumət və o, bu məsələlərin həlli üçün diplomatik işi gücləndirmək niyyətindədirlər: "İlin sonuna qədər və ya yaxın aylarda sülh müqaviləsinin imzalanması nə dərəcədə realdır" sualına cavab verən N.Paşinyan deyib ki, sülhün üç əsas prinsipi faktiki olaraq Azərbaycanla razılaşdırılıb və bu razılaşma danışıqlar zamanı, xüsusən də Brüsseldə üçtərəfli görüşlər zamanı əldə olunub. Söhbət SSRİ Baş Qərargahının xəritələri əsasında bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınmasından gedir. O, həmçinin bəyan edib ki, Ermənistanın və Azərbaycanın bir-birinə qarşı ərazi iddiasının olmadığı və olmayacağı barədə razılıq əldə edilib. Sülh müqaviləsinin növbəti prinsipi suverenlik və yurisdiksiyanın tanınması əsasında regional kommunikasiyaların blokdan çıxarılmasıdır.

Bu fikirlər Ermənistan rəhbərliyinin sülhün tərəfdarı olduğunu üzdə göstərsə də, əməldə görülən işlər və Qərbin və ABŞ-nin təkidli tələbi ilə sülhdən yayınma halı Hayastanın yenə də məkrli oynadığına dəlalət edir. Bunu noyabrın 14-də Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "X" hesabında qeyd etdiyi "Ermənistan sülh sazişi ilə bağlı sənədin variantını iki aydan artıqdır ki, gecikdirir. 2023-cü il sentyabrın 11-də Azərbaycan tərəfi Ermənistanın cavabının yaxın vaxtlarda təqdim olunacağı ümidi ilə ikitərəfli kanallar vasitəsilə sülh sazişinin 5-ci düzəliş edilmiş variantını müvafiq izahatlarla birlikdə qarşı tərəfə təqdim edib. Bu ilin sonunadək sülh müqaviləsi imzalamağa hazır olduqları barədə ictimaiyyətin bəyanatlarına baxmayaraq, Ermənistan tərəfi sənədin öz variantının təqdim olunmasını iki aydan artıqdır ki, gecikdirir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, indi bu, tarixi fürsətdir" fikirləri də təsdiqləyir.

Azərbaycan üçün hazırda sülh müqaviləsinin imzalanmasına heç bir maneə yoxdur, hər kəs də bilir ki, Azərbaycan sülh üçün bütün addımları atır. Görünür, ABŞ, Fransa və regionda marağı olan bəzi beynəlxalq təşkilatlar sülhün imzalana biləcəyindən çox narahatdırlar. Axı yeni əməkdaşlıqlar, yeni birliklərin yaranması fonunda bölgəyə nəzarət Cənubi Qafqaz ölkələrinin özləri tərəfindən həyata keçiriləcək. Əlaqələr genişlənəcək, iqtisadiyyatlar güclənəcək, transmilli qlobal layihələr dividendlər gətirəcək.

Məhz buna görə də regionda aranı yenidən qarışdırmaq, müharibə təhlükəsi yaratmaq üçün Azərbaycanın əleyhinə yeni kampaniyaya start veriblər. ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsinin Avropa üzrə alt komitəsində "Dağlıq Qarabağın gələcəyi" adı altında keçirilən dinləmə və orada səslənən fikirlər də bu ssenarinin tərkib hissəsidir.

Bütün hallarda Azərbaycan bölgədə sülhün alternativinin olmadığını bəyan edir və bu gün də qalib ölkə kimi mövqeyində qərarlıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistan beynəlxalq hüquq müstəvisində ifşa olunur

Vətən müharibəsindəki döyüş meydanında cəmi 44 günə Ermənistanı məğlub edərək onu kapitulyasiya aktına imza atmağa məcbur edən Azərbaycan zəfərdən ötən üç il müddət ərzində beynəlxalq hüquq müstəvisində də təcavüzkar ölkə üzərində ardıcıl qələbələr qazanır.






30 il boyu torpaqlarımızı işğal altında saxlayan, azərbaycanlılara qarşı kütləvi qətliam, soyqırımı törədən, yüzlərlə yaşayış məntəqəmizi talayan, tarixi, mədəni, dini abidələrimizi dağıdan vəhşi xislətli ermənilər, həm də ötən müddətdə dünyanı aldatmağa yönəlik iftira, yalan və böhtan kampaniyası aparıblar.

Lakin Azərbaycan beynəlxalq hüquqla erməni yalanlarının üzərindən davamlı olaraq xətt çəkir.

Xatırladaq ki, iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ermənistanın 12 may 2023-cü ildə məhkəməyə təqdim etdiyi və 23 aprel 2023-cü ildə Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasının "qanunsuz" olduğuna dair vəsatətini yekdilliklə rədd etdi. Azərbaycan tərəfinin BƏM-ə təqdim etdiyi çoxsaylı sübutlarla Ermənistanın yalanları iflasa uğradıldı.

### Ermənistanın iddiaları rədd edildi

2023-cü il noyabrın 17-si tarixi də Ermənistanın beynəlxalq hüquq müstəvisində növbəti dəfə Azərbaycan qarşısında ağır məğlubiyyəti ilə yadda qaldı. Belə ki, BƏM sözügedən tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd etdi.

Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiq edən məhkəmə bu qərarı ilə ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirdiyi milli maraqlarını qəbul etdiyini göstərmiş oldu.

Qeyd edək ki, BƏM həm də Ermənistanın Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini rədd edib. Həmçinin məhkəmə Ermənistanın BMT agentliklərinin Qarabağ bölgəsinə səfəri və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq barədə iddiasına əhəmiyyət verməyib, bununla da, beynəlxalq təşkilatların bölgəyə girişi ilə bağlı ölkəmizə qarşı bütün iddiaları mahiyyətcə əsassız elan edib.

Məhkəmə mədəniyyət abidələrinin və artefaktlar ilə bağlı Ermənistanın iddialarını da rədd edib, müvafiq ittihamlarla saxlanılan qanunsuz separatçı rejimlə əlaqəsi olan şəxslərlə bağlı Ermənistanın iddiasını təmin etməyib.

Eyni zamanda Azərbaycanın İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiya (CERD) öhdəliklərinin pozuntusu məhkəmə tərəfindən təsdiqlənməyib və Ermənistanın bu iddiası da rədd olunub.

### AHİM işğalla bağlı Ermənistanın dürüst olmadığı qənaətindədir

Ermənistan beynəlxalq hüquqdan yayınmaqdan ötrü daim öz cinayət əməllərini ört-basdır etməyə çalışır, xalqımıza, ölkəmizə qarşı törətdiyi bədnam əməlləri riyakarlıqla inkar edir, işğal faktını danır.

Ancaq Avropa İnsan Haqları Məhkəməsinin (AHİM) bu yaxınlarda qəbul etdiyi qərar Ermənistanın daha əvvəl işğal altında saxladığı Azərbaycan ərazilərində nəzarətinin və ya yurisdiksiyasının olmamasına dair uzunmüddətli mövqeyini ifşa edib.

AİHM-in 17 oktyabr 2023-cü il tarixli "Hovhannisyan və Karapetyan Ermənistana qarşı" işi üzrə verdiyi hökmdə Ermənistan Respublikasının vətəndaşları R. Hovhannisyanın və A. Sarqsyanın 2009 və 2008-ci illərdə Ermənistan ordusuna çağırıldıqları və "Dağlıq Qarabağ silahlı qüvvələri"nin 36 535 saylı hərbi hissəyə göndərildikləri qeyd edilib.

Bildirilib ki, 2010-cu ilin iyulunda hər iki hərbi qulluqçu öz hərbçi yoldaşları tərəfindən daxili insident nəticəsində qətlə yetirilib və öldürülən hərbçilərin valideynləri təzminat üçün Ermənistanı məhkəməyə verib.

Bununla bağlı xarici işlər nazirinin müavini Elnur Məmmədov "X" platformasındakı paylaşımında bildirib ki, məhkəmə artıq digər işlərdə Ermənistanın sözügedən ərazi üzərində yurisdiksiyası məsələsini araşdırıb və müəyyən edib ki, Ermənistan Dağlıq Qarabağ və ətraf ərazilər üzərində effektiv nəzarət həyata keçirib.

Ermənistan o zamanlar işğal altında saxladığı Azərbaycanın ərazilərində törədilən istənilən cinayətə görə dövlət məsuliyyətindən qurtulmaq məqsədilə uzun müddət bu ərazilər üzərində heç bir nəzarəti və ya yurisdiksiyası olmadığı mövqeyində olub: "Diplomatik desək, AHİM Ermənistanın dürüst olmadığı qənaətinə gəlib".

Göründüyü kimi, Azərbaycanın hüquq müstəvisində Ermənistana qarşı qazandığı qələbələr, eləcə də beynəlxalq məhkəmələrdə İrəvanın ifşa edilməsi təcavüzkarın törətdiyi cinayət əməllərinə görə cavab verməsini təmin edəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Dünya siyasi səhnəsinin şeyx nəsrullahları

ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici İşlər Komitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələrin keçirilməsində adama gülməli gələn odur ki, konqres ermənilər üçün heç bir keçmişi olmayan "artsax"ın gələcəyini müzakirə edir. Gör nə böyük məntiqsizlikdir. Axı keçmişi olmayan bir qurumun gələcəyi necə ola bilər?



Təbii ki, bu, ABŞ-nin Azərbaycana münasibətdə ədalətsiz mövqeyinin növbəti səhifəsidir. Bu mənasız dinləmələrin absurdluğu dünyanın ən avam adamına belə gün kimi aydındır. Bu dinləmənin özü bütövlükdə yanlış addımdır. Bir ölkənin ərazisində yaradılmış qondarma qurumu başqa bir ölkənin müzakirə etməsi hansı məntiqə sığır? Bu, Azərbaycanın suverenliyinə, beynəlxalq hüquqa ən böyük hörmətsizlik deyilmi?

Vaşinqton bu gün Qərb ölkələri ilə baş-başa verib Azərbaycana qarşı qərəzli mövqeyinə yeni ilmələr vurur. Qərb ölkələri bu ilmələrdən həvəsə gələrək artıq bitmiş Qarabağ münaqişəsi ətrafındakı vəziyyəti anlamaq istəmədən ölkəmizə qarşı bədxah addımlar atırlar. Onlar birinci növbədə Ermənistanla Rusiyanın arasını vurmağa çalışırlar. Bəhanələri də odur ki, Rusiya Ermənistana xəyanət etdi, Qarabağ hadisələrində onu sonadək dəstəkləmədi. Yəni Azərbaycana qarşı çıxmadı. Anlamaq istəmirlər ki, axı işğalçı Ermənistanı necə dəstəkləmək olar? Azərbaycan istər müharibəni, istərsə də antiterror tədbirlərini öz suveren ərazisində, beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində aparıb, heç bir ölkənin ərazisinə ayaq basmayıb.

Təəssüfləndirici odur ki, ABŞ uzun illər rəsmi Bakının müxtəlif vacib məsələlərdə qarşılıqlı əməkdaşlığını və dəstəyini unudaraq Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla münasibətinə xələl gətirdi. Azərbaycan ABŞ-nin Əfqanıstanda əməliyyatlar apardığı zaman baza ölkələrindən biri olub. Bundan başqa, Bakı beynəlxalq səviyyədə Əfqanıstan, İraq və digər ölkələrdə həyata keçirilən əməliyyatları həmişə dəstəkləyib. ABŞ əvvəlki illərdə Azərbaycanla daha yaxın münasibətlərin formalaşmasına, qarşılıqlı əməkdaşlığın inkişafına müəyyən töhfələr verib. Vaşinqton regionda Azərbaycanın transmilli enerji layihələrinin, ilk növbədə, Bakı-Tibilisi-Ceyhan boru kəmərinin və "Cənub qaz dəhlizi"nin uğurla reallaşdırılmasını dəstəkləyib.

Bəs Azərbaycan Ordusunun Qarabağdakı separatçılara qarşı uğurla həyata keçirdiyi antiterror əməliyyatlarından sonra Birləşmiş Ştatların birdən-birə hadisələrin gedişatındakı mövqeyinin belə kəskin və qəflətən dəyişməsinin arxasında hansı gizli məqsədlər dayanır? Nədən ABŞ Cənubi Qafqazda söz sahibi olan Azərbaycana öz ərazi bütövlüyünü təmin edən addımlar atdığına görə belə bir qısqanc münasibət göstərir? Hələ özü azmış kimi, Qərb ölkələrini də başına toplayır.

Ötən illərdən yaxşı bilirik ki, istər ABŞ, istərsə də Qərb ölkələri tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tutduğu mövqe ədalətli deyildi. ABŞ keçmiş ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ərazilərimizin işğalı, etnik təmizləmə, milli-mədəni irsimizin məhv edilməsi, sərvətlərimizin talanmasına göz yumurdu. 30 il ərzində bir dəfə də olsun işğalçı Ermənistanı qınamayan ABŞ 1992-ci ildə Azərbaycana qarşı 907-ci düzəlişi qəbul etdi. Təbiidir ki, Vaşinqtonun sülhə, qarşılıqlı əməkdaşlığa xidmət etməyən addımları həm tarixdə, həm də Azərbaycan xalqının yaddaşında həmişəlik qalacaq.

Bəlkə də qərəzli mövqeləri ilə bir-birindən seçilməyən Vaşinqton və Qərb ölkələri hesab edirlər ki, Azərbaycanla təhdid dilində danışa bilərlər. Əgər belə düşünürlərsə, çox böyük səhv edirlər. Qoy unutmasınlar ki, rəsmi Bakı ona nəyi isə diktə etmək istəyənlərə həmişəki kimi, bundan sonra da layiq olduğu yeri göstərəcək.

Azərbaycan öz ərazisindən erməni separatizmi kimi qara bir yaranı kəsib atdıqdan və bununla da Ermənistanla münaqişəni bitirdikdən sonra Qərbin, o cümlədən Birləşmiş Ştatların regionda vasitəçi kimi iştirakına yer qoymadı. Bu fakt həm ABŞ-ni, həm də ona züy tutan Qərb ölkələrini ciddi narahat etməyə başladı. Çünki Qərbin və Birləşmiş Ştatların regiona hərbi qüvvə yerləşdirmək üçün əllərində bəhanələri qalmadı. Dünya açıq-aydın görür ki, bölgədə hər hansı bir hərbi kontingentin iştirakına ehtiyac yoxdur. Bütün bunlar Qərbin və ABŞ-nin məkrli planlarının iflası deməkdir. Buna görə də ABŞ və Qərb ölkələri köməkləşərək ölmüş "artsax"ı qəbirdən çıxarmaq istəyirlər. Bu məqsədlə keçmişi olmayan bir qondarma qurumun gələcəyini müzakirə edirlər.

ABŞ-nin və Qərb ölkələrinin Azərbaycana qarşı olan qərəzli mövqelərini götür-qoy edəndə böyük yazıçımız Cəlil Məmmədquluzadənin Şeyx Nəsrullahı yada düşür. Bu gün ABŞ və bir sıra Qərb ölkələri dünyanın siyasi səhnəsində Şeyx Nəsrullahlıq etmək istəyirlər. Artıq tarixin arxivinə tullanmış, özü-özünü buraxdığını rəsmən elan etmiş qondarma qurumu diriltməyə çalışırlar. Daha fikirləşmirlər ki, ölənlər dirilmir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Dənizin dibi ilə...



## Çəkiləcək 1100 kilometrlik xətlə Azərbaycan "yaşıl enerji" ixrac edəcək

**Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasından bir ilə yaxın vaxt keçir. Təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var. Bu baxımdan sözügedən layihə necə irəliləyir?**

Əvvəla xatırladaq ki, bu sazişi keçən il dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban imzalamışlar. Mərasimdə Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen də iştirak etmişdilər. Elə həmin gün bu məsələ ilə bağlı plenar iclas keçirilmişdi.

Rumıniya Prezidenti Klaus Yohannis perspektivdə görülməli işlərin çox olduğunu bildirərək demişdi: "Növbəti mərhələdə sualtı elektrik enerjisi xətti boyunca rəqəmsal xətti çəkməyi hədəfə alırıq. Dəniz nəqliyyat əlaqələrinin bizim Konstantadakı limanımızdan Gürcüstan istiqamətində genişlənməsi nəzərdə tutulur. Bu səylər Azərbaycanla və sonra Mərkəzi Asiya ilə bağlılığı artıracaq. Potensialımızdan yararlanmaq və dayanıqlılığı artırmaq üçün qarşıda bizi çoxlu işlər gözləyir".

Beləliklə, bərpaolunan enerjinin inteqrasiya edilməsi üçün münasib interkonnektorlara ehtiyac yaranır. Buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen bu sazişin Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracağını və təmiz enerjiyə keçidə nail olmağa dəstək verəcəyini bildirdi.

Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Görülən işlər, keçirilən tədbirlər də ölkəmizin inamlı addımlarla bu məqsədə doğru irəlilədiyini göstərir. Cari il noyabrın 21-də Macarıstanın paytaxtı Budapeşt şəhərində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin beşinci iclasının keçirilməsi də buna aydın misaldır. Tədbirdə Azərbaycan energetika naziri Pərviz Şahbazov, Macarıstan xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstan Baş nazirin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniya energetika naziri Sebastian Burduja tərəfindən təmsil olunub. Görüşdə eləcə də Bolqarıstanın, Avropa Komissiyasının, 4 ölkənin ötürücü sistem operatorlarının və "CESI" şirkətinin nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycanda bərpaolunan enerji potensialının reallaşdırılması və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin inkişafının cari vəziyyətindən geniş bəhs olunub. Bir neçə ölkəni, iki dənizi birləşdirən marşrutlarla Xəzərin "yaşıl enerji" potensialını Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən bu strateji layihənin icrasını sürətləndirməyin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, təxminən bir il əvvəl sözügedən ölkələr vahid mövqedən çıxış edərək "yaşıl enerji" dəhlizi təşəbbüsü üzrə sıx əməkdaşlığa hazır olduqlarını Avropa İttifaqının şahidliyi ilə ali səviyyədə təsdiqləyiblər. Bu layihə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısına çevrilmək planlarının tərkib hissəsidir. Sözügedən dəhlizlə 4 QVt həcmində "yaşıl enerji"nin ixracı məqsədilə dənizdə sektorlar müəyyənləşdirilib, quruda ərazilər ayrılıb və növbəti proseslərə start verilib. "Yaşıl enerji" tərəfdaşlığımızın öz məqsədinə çatması üçün bərpaolunan mənbələrdən enerji istehsalı, bu enerjinin ötürülməsi və satışı istiqamətlərində sıx koordinasiya olunmuş fəaliyyət həyata keçirilməlidir.

Müzakirələr zamanı dəhlizin ölkələr üzrə perspektivləri, Bolqarıstanın layihəyə qoşulması, Avropa İttifaqı tərəfindən layihənin maliyyələşdirilməsi imkanları, Gürcüstan və Rumıniya arasında Qara dəniz sualtı kabel layihəsi üzrə "CESI" məsləhətçi şirkətinin fəaliyyəti kimi məsələlərə baxılıb.

Dəhlizin Texniki İqtisadi Əsaslandırmasının (TİƏ) hazırlanması üzrə məsləhətçi şirkətin seçilməsi üçün artıq tender də keçirilib. Prosesin tamamlanmasından sonra dərhal texniki-iqtisadi əsaslandırmaya başlamaq nəzərdə tutulur. Tezliklə birgə müəssisənin yaradılması vacib məsələ kimi qarşıda dayanır. Bu prosesdən irəli gələn məsələlərin razılaşdırılması məqsədilə dekabrda Bakıda 4 ölkənin ötürücü sistem operatorlarının görüşünün keçirilməsi qərara alınıb. Növbəti iclasın isə gələn il Gürcüstanda keçirilməsinə qərar verilib. Həmçinin "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın müvafiq nazirlikləri arasında yaşıl enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb və bu istiqamətdə "yaşıl enerji platforması"nın yaradılması razılaşdırılıb.

Noyabrın 21-də Macarıstanın paytaxtında eləcə də "Yaşıl dəhliz"ə üzv dövlətlərin - Azərbaycan, Gürcüstan, Bolqarıstan, Rumıniya və Macarıstanın 5-ci nazirlər iclasının nümayəndə heyətlərinin başçılarının mətbuat konfransı keçirilib. Ev sahibi kimi mətbuat konfransını açıq elan edən Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycandan Gürcüstan, Qara dənizin dibi, daha sonra Bolqarıstan və Rumıniya ərazisindən "yaşıl enerji"nin ölkəsinə gətirilməsi layihəsinin icra edilməsində hazırkı müzakirələrin əhəmiyyətini vurğulayıb.

Axı söhbət adi bir layihədən getmir. Dənizin dibi ilə təxminən 1100 kilometr uzunluğunda kabel xəttinin çəkilməsi nəzərdə tutulur. Onu da vurğulayaq ki, bu layihə Avropanın "yaşıl enerji" təchizatçısı olmaq planlarımızın yalnız bir hissəsidir. Ölkəmizin 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal etməsi gözlənilir. Bunun da 80 faizi ixrac olunacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərbaycan ilə Pakistan arasında əlaqələrin genişləndirilməsini yüksək qiymətləndiririk"

**"Mən fəxr edirəm ki, bu gün həm Azərbaycanın, həm də Pakistanın peşəkar institutları mənim prezidentliyim dönəmində münasibətlərin əsasını qoyurlar və əminəm ki, zaman keçdikcə bu, bir-birimizə olan qardaşlıq sevgimizdən irəli gələn strateji tərəfdaşlıq səviyyəsinə yüksələcək".**

Bu sözləri Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Əli Lətif Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasına dair tədbirdə deyib. AZƏRTAC xəbər verir ki, ICAP prezidenti qarşılıqlı etimad və maraqlar əsasında real addımların atılması üçün əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib.

"Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu İngiltərə və Uels İmtiyazlı Mühasiblər İnstitutu, Avstraliya və Yeni Zelandiya İmtiyazlı Mühasiblər İnstitutu və Kanadanın İmtiyazlı Peşəkar Mühasibləri kimi çox məhdud sayda qurumlarla memorandum imzalanıb. Biz hazırda Azərbaycanın Auditorlar Palatası ilə memorandum imzalamaqdan çox şadıq. Bu isə öz növbəsində Auditorlar Palatasının peşəkarlığından bəhs edir. Bizim komandamız Azərbaycan Auditorlar Palatasının komandası ilə məsləhətləşdikdən sonra konkret sahələr üzrə qarşılıqlı razılaşdırılmış fəaliyyət planını hazırlamaq niyyətindəyik. Biz artıq ilkin məsləhətləşmələrdən sonra müvafiq təlim və dəstək sahələrini, daha dəqiq desək, Çirkli Pulların Yuyulması və Keyfiyyətin yüksəldilməsi məsələləri üzrə əməkdaşlıq edilməsini müəyyən etmişik", - deyə Əli Lətif diqqətə çatdırıb.

ICAP prezidenti bildirib ki, Azərbaycan qabaqcıl beynəlxalq brend şirkətlərin üzvü olan peşəkar təşkilatların zəngin təcrübəsindən yararlana bilər: "Hər iki tərəfdə Azərbaycan ilə Pakistan arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini dəstəkləyəcək siyasi iradənin mövcudluğunu yüksək qiymətləndiririk. Əminəm ki, CAAR və ICAP hökumətlərarası əlaqələrimizdən və səmərəli ikitərəfli və çoxtərəfli əməkdaşlığımızdan uğurla bəhrələnəcək".

## "Azeri Light" markalı neft ucuzlaşıb

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,53 dollar və ya 1,78 faiz azalaraq 84,57 dollar olub.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.




## Pensiya üçün müraciət asanlaşır

**"Nazirlər Kabineti tərəfindən dəyişiklik edilən qaydalar əmək pensiyalarına əlçatanlığın artması məqsədi daşıyır. Qaydalarda əsas məqsəd ondan ibarətdir ki, əmək pensiyalarının təyin edilməsi və müraciət prosedurlarının sadələşdirilməsi və asanlaşdırılması mümkün olsun".**

Bu barədə Trend-in suallarını cavablandırarkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib. O qeyd edib ki, əmək pensiyasına müraciət zamanı bir sıra sənədlər tələb olunmayacaq.

"Bu, əslində, vətəndaşların pensiyaya əlçatanlığının və müraciət imkanının genişləndirilməsinə şərait yaradır. Digər məqamlardan biri xüsusən pensiyalara əlavələrin hesablanması ilə bağlıdır. Nəzərə alsaq ki, yardımların pensiyaya əlavə edilməsi və indeksasiya olunması kimi mərhələnin ardıcıllığı müəyyənləşir, bu da pensiya məbləğlərinin artırılması baxımından vacibdir.

Yeni qaydalarda əlavələrin hesablanması pensiya məbləğlərinin iş stajlarına uyğun artırılması baxımından vacib addımdır", - deyə o əlavə edib.

Xatırladaq ki, Nazirlər Kabineti sığorta-pensiya sisteminin təkmilləşdirilməsi, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti addım kimi, "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edib.



## İRİA KOB-ların rəqəmsallaşması layihəsi üzrə işlərə start verib

**Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı əsas tutaraq İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi cari ildən KOB-ların (Kiçik və Orta Bizneslərin) rəqəmsallaşması layihəsi üzrə işlərin görülməsinə start verib.**

Əsas məqsəd KOB-ların innovativ həll yolları ilə effektivliyinin və iqtisadi göstəricilərinin artırılması, biznes və sahibkarlıq proseslərin optimallığının təmin olunmasıdır. Bir neçə istiqamət üzrə fəaliyyətə başlayan layihə çərçivəsində Rəqəmsal Yetkinlik İndeksi (DMI - Digital Maturity Index) platforması yaxın zamanlarda KOB-ların istifadəsinə veriləcək.



Bu platformanın məqsədi KOB-lara rəqəmsal yetkinliyin qiymətləndirilməsi və artırılması üçün imkan yaratmaq və onları daha effektiv biznes mühiti ilə təmin etməkdir.

Bundan əlavə, gənc sahibkarları əhatə edəcək paralel bir neçə rəqəmsallaşma layihələrinə hazırlıq proseslərinə artıq başlanılıb. Məqsəd daha dinamik sahibkarlıq ekosistemi qurmaq və rəqəmsallaşmanın əhəmiyyəti ilə bağlı digər KOB-ların da məlumatlılığını artırmaqdır.

Eyni zamanda layihə çərçivəsində il boyu rəqəmsallaşma biliklərinin artırılması və yeni rəqəmsallaşma həllərin təşviqi üçün müxtəlif tədbirlərin keçirilməsi planlaşdırılır.



## DMA rəqəmsallaşmaya keçir

**Azərbaycanın əldə etdiyi uğurların bir təminatı da insan kapitalıdır, yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclər ordusudur. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən, ideyalarla zəngin bir qüvvədir.**

Prezident İlham Əliyev də hər zaman bu meyarları nəzərə alaraq Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük meydan verilməsinin tərəfdarı olub, hər cür şərait yaradılmasına təminat verib. Gənclərimiz də bu imkanlardan yararlanır, cəmiyyətin inkişaf prosesinin avanqardına çevrilirlər.

Bu gün Azərbaycanda gənclərin hərtərəfli inkişafı, onların üzləşdiyi problemlərin həlli, o cümlədən gənclərin layiqli məşğulluğunun təmin edilməsi dövlətin apardığı siyasətin əsas prioritet istiqamətlərindəndir. Gənclər ölkəmizin həm ictimai-siyasi, həm də iqtisadi həyatında mühüm rol oynayırlar. Çünki Prezident İlham Əliyevin ölkədə dinamik inkişafı təmin edən uğurlu islahatları iqtisadiyyatın dayanıqlı inkişafında gənclərin iştirakı üçün geniş meydan açıb, onların əmək bazarına çıxışının və məşğulluğunun artırılmasının hərtərəfli dəstəklənməsinə şərait yaradıb. Bu islahatların nəticəsidir ki, gənclər arasında işsizlik səviyyəsi kəskin şəkildə azalmaqla yanaşı, Azərbaycan gəncliyi ictimai həyatın və iqtisadiyyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir.

Bu günlər Türkiyənin Antalya şəhərində iki gün davam edən Türkiyə İş Qurumu Baş İdarəsi (İŞKUR) və Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi (DMA), habelə Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyasının (WAPES) birgə təşkilatçılığı ilə "NEET-in (Not in Education, Employment or Training) qlobal və yerli tendensiyaları" adlı konfransın da mövzusu gənclərin məşğulluğunun təmin edilməsi olub. Konfransda 41 ölkədən, habelə Beynəlxalq Əmək Təşkilatı (BƏT), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatından (İƏİT) nümayəndələr iştirak edib. Tədbirdə dünya ölkələri üçün vacib çağırışlardan biri olan gənclərin məşğulluğunun təmin edilməsi istiqamətində birgə həllər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Xatırladaq ki, tədbirin təşkilatçılarından biri olan Dünya Məşğulluq Xidmətləri Assosiasiyası (WAPES) 1988-ci ildə üzv ölkələr arasında məşğulluq və əmək bazarı məsələləri barədə fikir mübadiləsi aparmaq üçün qurulub. WAPES özlüyündə 80 dövlətin məşğulluq qurumunu və bir milyon əməkdaşını əhatə edir. Təşkilatın əsas dəyərləri gənclərə önəm verilməsi, kommersiya məqsədi güdməməsi, şəffaflıq, bərabərlik və yüksəkkeyfiyyətli xidmətdir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) WAPES-in üzvüdür. Hazırda WAPES ilə Dövlət Məşğulluq Agentliyi arasında əməkdaşlıq çərçivəsində tədbirlər həyata keçirilir. Dövlət Məşğulluq Agentliyi WAPES-in müxtəlif görüş və tədbirlərində aktiv şəkildə təmsil olunur. Məsələn, 2021-ci ilin sentyabrında Dövlət Məşğulluq Agentliyi və Türkiyə Respublikasının İş Qurumunun ("İŞKUR") əməkdaşlığı çərçivəsində WAPES-a üzv təşkilatlar üçün "Postpandemiya dövründə karyera inkişafı və ixtisas seçimi" mövzusunda virtual konfrans təşkil edilib. 2022-ci ilin aprel ayında isə Estoniya Respublikasının Tallin şəhərində WAPES tərəfindən "Davamlı dəyişən əmək bazarında məşğulluq xidmətlərinin problemləri və innovativ yanaşmalar" mövzusunda Dünya Konqresi keçirilib və Dövlət Məşğulluq Agentliyinin nümayəndə heyəti konqresdə iştirak edib. Konqres çərçivəsində Azərbaycan Dövlət Məşğulluq Agentliyi tərəfindən "Texnoloji innovasiyalar və xidmətlərin göstərilməsi zamanı süni intellektdən istifadə sahəsində məşğulluq xidmətlərinin təcrübəsi" mövzusunda üzv ölkələr üçün DMA-nın rəqəmsal layihələri haqqında təqdimat da yer alıb. Adıçəkilən konqresdən beş ay sonra-sentyabr ayında WAPES ilə Almaniya Federativ Respublikasının Məşğulluq Xidmətinin (BA) birgə əməkdaşlığı çərçivəsində Avropa regionu üçün "Transmilli miqrasiya idarəçiliyində məşğulluq xidmətlərinin rolu və ikitərəfli əməkdaşlıq formaları" mövzusunda tədbir keçirilib və Dövlət Məşğulluq Agentliyinin nümayəndə heyəti tədbirdə iştirak edib.

Bu baxımdan qardaş Türkiyədə keçirilən ikigünlük konfrans da təbii ki, sıradan bir tədbir deyildi, onu sadaladığımız əvvəkli tədbirlərin davamı kimi dəyərləndirmək olar. Tədbirin əsas diqqətçəkən məqamlarından biri də o oldu ki, dünya ölkələrinin məşğulluq xidmətlərinin nümayəndələri öz təcrübələrini bölüşdülər. Əlbəttə, təhsilsiz, işsiz və təlimsiz gənclərin rastlaşdıqları maneələrin aradan qaldırılması üçün beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsi öz müsbət nəticəsini verir. Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli qardaş ölkələr olan Azərbaycan və Türkiyənin bütün sahələrdə uğurlu əməkdaşlığını, həmçinin əmək və sosial müdafiə, məşğulluq sahəsində səmərəli əməkdaşlıq təcrübəsini vurğulayıb. Agentliyin fəaliyyəti barədə məlumat verərək, qurumun fəaliyyətində müasir yanaşmalara, rəqəmsallaşmaya böyük önəm verildiyini qeyd edib.

Beynəlxalq Əmək Təşkilatının Türkiyə ofisinin direktoru Yaser Əhməd Həsən, WAPES-in prezidenti Noureddin Benxalil və Avropa üzrə vitse-prezidenti Florens Dumontiyer, Avropa Məşğulluq Xidmətləri Şəbəkəsinin rəhbəri Karoline Mansel çıxışlarında bildiriblər ki, konfrans gənclərin məşğulluğunun təminatı ilə bağlı fəal təcrübə mübadilələrinin aparılmasına mühüm töhfə verəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Güləşçilərimiz əzmkarlıq göstərirlər

## Dünya çempionatının lideri Azərbaycandır

Bakıda təşkil olunan hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatı davam edir. Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən, 18 ölkənin təmsil olunduğu yarışın ikinci günündə Azərbaycan idmançıları daha 2 qızıl və 1 gümüş medal qazanaraq dövlət bayrağımızı ucaldıb, himnimizi səsləndiriblər.








Güləşçilərimiz Orxan Abbasov (79 kiloqram çəki dərəcəsi) və Ruzanna Məmmədova (59 kiloqram) rəqiblərini məğlubiyyətə uğradaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Ceyhun Allahverdiyev (61 kiloqram) isə həlledici görüşdə türkiyəli Ahmet Dumana məğlub olaraq gümüş medalın sahibi olub.

Turnirin ilk günündə Əli Rəhimzadə (65 kiloqram), üçqat dünya çempionu Hacı Əliyev (70 kiloqram), Turan Bayramov (74 kiloqram) və İbrahim Yusubov (92 kiloqram) qızıl medal qazanıblar. Elnurə Məmmədova (52 kiloqram) ikinci, Nərgiz Səmədova (50 kiloqram) isə üçüncü yerləri tutublar. Bununla da Azərbaycan təmsilçiləri medalların sayını 9-a çatdıraraq komanda hesabında birinci pillədə qərarlaşıblar.

"Ölkəmizdə belə mötəbər yarışın keçirilməsi qürurvericidir. Daxilimdə bir inam var idi ki, bu yarışda ölkəmizi layiqincə təmsil edəcəyəm. Məqsədim qızıl medal almaq idi və belə də oldu. Monqolustanlı rəqibim böyük əzmkarlıq göstərsə də, təşəbbüsü əldən verməyərək qalib gəldim. Ümid edirəm ki, komandamız bu uğurun davamını gətirəcək". Bunu dünya çempionatında qızıl medala layiq görülən azərbaycanlı idmançı Əli Rəhimzadə deyib. O bildirib ki, Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında dövlət bayrağımızı zirvədə görmək çox şərəfli hissdir: "Bu qələbəmi Vətən uğrunda canından keçmiş şəhidlərimizə həsr edirəm".

Dünən Azərbaycanın daha yeddi güləşçisi - 5 kişi və 2 qadın idmançımız dünya çempionatında medallar uğrunda mübarizəyə qoşulublar. Yunan-Roma güləşçilərindən Fərid Sadıxlı (55 kq), Ziya Babaşov (63 kq), Ülvi Qənizadə (72 kq), Azad Əliyev (82 kq) və Murad Əhmədiyev (97 kq) etimadı doğrultmağa çalışıblar. Qadınlardan isə Jalə Əliyeva (57 kq) ilə Birgül Soltanova (62 kq) qüvvələrini sınayıblar.

Ziya Babaşov rusiyalı rəqibinə qalib gələrək qızıl medal qazanıb.

Ülvi Qənizadə əlcəzairli Merabet Abdelmalekini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Murad Əhmədiyev final görüşündə italiyalı rəqibini məğlubiyyətə uğradaraq birinci yerin sahibi olub.

Fərid Sadıqlı və Azad Əliyev isə bürünc medal uğrunda görüşlərdə rəqiblərindən üstün olaraq üçüncü yerləri tutublar.

Qadın güləşçilərdən Jalə Əliyeva birinci, Birgül Soltanova üçüncü yerlərə sahib olublar.

Bununla da yığma komandanın dünya çempionatında qazandığı medalların sayı 18-ə çatıb.

Xatırladaq ki, mötəbər yarışın açılış mərasimində gənclər və idman nazirinin müavini Mariana Vasileva Azərbaycanda güləşin qədim ənənələrə malik olduğunu bildirib. Onun dediyi kimi, "Bütün bunların hamısı cənab Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nümunəsidir".

Öz növbəsində, Beynəlxalq Hərbi İdman Şurasının Avropa üzrə vitse-prezidenti Dirk Şvede Bakıdakı təşkilatçılığı yüksək qiymətləndirdiyini söyləyib. Dövlət Sərhəd Xidmətinin rəis müavini, general-leytenant Abbas Xəlilov qonaqları bu turnirdə görməkdən məmnun olduğunu bildirib: "Cənab Prezident İlham Əliyevin başçılığı altında ölkəmizdə bir çox beynəlxalq yarışlar təşkil olunur. Azərbaycanda keçirilən bu dünya çempionatının Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsi bizim üçün xüsusi məna kəsb edir. Bu gün idman özündə sülhü, dostluğu əks etdirir. Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Beynəlxalq İdman Şurasına yarışı bizə həvalə etdiyi üçün minnətdarlığımızı bildiririk".

Dünya çempionatında 18 ölkədən müxtəlif çəki dərəcələrində 176-sı kişi, 46-sı qadın olmaqla, ümumilikdə 222 idmançı mübarizə aparır.

"İdmanla dostluq" devizi altında keçirilən yarış dekabrın 3-də başa çatacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Dostluq və qardaşlığa əsaslanan əlaqələr hərtərəfli inkişafdadır
Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri
Prezident İlham Əliyev Dubayda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb
Erməni xülyası, Qərb riyakarlığı və Azərbaycan həqiqətləri
"İLHAM ƏLİYEV bizə cənnəti qaytardı"
Qədim elin yeni sakinləri - zabuxlular doğma yurda qayıdışın sevincini yaşayırlar
Prinsipial mövqe, qətiyyətli siyasət
Qərb ölkələrinin qrant tələsi üzərində qurduğu xəyallar reallaşmayacaq
Hayastan ağır tənəzzül yaşayır
Ağ Evin astar üzü
ABŞ-nin etiraf zəngi
Tifaqlar niyə dağılır?
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Azərbaycanın COP28-dəki pavilyonu fəaliyyətə başlayıb













Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasında - COP28-də pavilyonla təmsil olunur.

AZƏRTAC xəbər verir ki, Dubayda dekabrın 12-dək davam edəcək COP28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlığı üçün davamlı həlləri rəhbər tutaq" ("Pioneering sustainable solutions for climate resilience") mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub.

İnteraktiv formatdakı pavilyonda Azərbaycanın iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya, adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir.

Qeyd edək ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib və bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.

Pavilyonda "Enerji keçidi", "Ətraf mühit xəritəsi", "Bərpaolunan enerji", "Ağıllı kənd" və digər bölmələr fəaliyyət göstərir. İnteraktiv formatdakı "Azərbaycanın Ətraf Mühit Xəritəsi" Milli Parklar, İqlim növləri, Bərpaolunan enerji, Su ehtiyatları və Yaşıl konsepsiyanı əks etdirir. Hər mövzu mövcud infrastruktur və gələcək layihələr haqqında ətraflı məlumatlarla Azərbaycanın xəritəsini təqdim edir. Pavilyondakı instalyasiyada Azərbaycan Respublikasının "Qırmızı kitab"ı, iqlim təşəbbüsləri və minalarla mübarizə mövzusu da əhatə olunub. Burada "Qırmızı kitab"a düşmüş və Azərbaycanda nəsli kəsilməkdə olan heyvan və bitkilər haqqında məlumatlar, QHT və dövlət qurumları tərəfindən həyata keçirilən ekoloji layihələr, ölkəmizdəki mina problemi və ekoloji nəticələri barədə məlumat verilir.

Pavilyondakı "Ağac ək" bölməsində isə Ermənistanın işğalı zamanı dağılmış ekoloji tarazlığı bərpa etmək üçün Azərbaycanda, xüsusən də Qarabağda həyata keçirilən ağacəkmə təşəbbüsləri təqdim olunur. Pavilyonun hər bir ziyarətçisi də planşet vasitəsilə rəqəmsal olaraq ərizə təqdim edərək ağacəkmə (şam və ya zeytun ağacı) təşəbbüsünə qoşula və bununla Qarabağın ekoloji balansının bərpasına dəstək ola bilər. Bu ağaclar Qarabağ bölgəsində - Füzuli şəhərində əkiləcək.

# Ölkə ərazisində yağmursuz hava şəraiti davam edəcək



Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 11-16° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti, bəzi yerlərdə 15° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 14-19° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 14-19° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, sürəti saniyədə 5-10 metr olacaq, arabir 15 metrədək güclənəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 14-19° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 14-19° isti, dağlarda gecə 5-9°, gündüz 13-18° isti olacağı gözlənilir.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5270
Sifariş 3115

Qiyməti 40 qəpik